Xalqın qəzeti!

# Xalq qəzeti

№ 190 (30884) 7 sentyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Cənubi Qafqazda sabitliyin təməli qoyulur

*Şərti sərhəddə artıq gərginlik yox, əməkdaşlıq mühiti duyulur*



**Avqustun 8-də Vaşinqtonda "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətninin paraflanmasından, eləcə də Birgə Bəyannamənin imzalanmasından sonra bölgəmizdə tamamilə fərqli ab-hava yaranıb.**

Bu sənədlərin imzalanması ilə Cənubi Qafqazda yeni siyasi mərhələnin əsasları qoyuldu desək, yəqin ki, səhv etmərik. İllərdir davam edən silahlı qarşıdurmanın, münaqişənin, müharibələrin, atəşkəs pozuntularının yerini real əməkdaşlıq imkanları almağa başlayır. Hazırda əsas məsələ addım-addım etimad quruculuğu tədbirlərinin həyata keçirilməsidir.

İki ölkə arasında etimad quruculuğu prosesinin digər bir istiqaməti də sərhədlərin delimitasiya və demarkasiyası məsələsidir. Doğrudur, bu proses bilavasitə sülh danışıqları ilə bağlı deyil. Çünki sərhədlərin dəqiqləşdirilməsi uzun müddət yerdə iş aparılmasını tələb edən bir prosesdir.

*(ardı 4-cü səhifədə)*

## Təyyarə olayı və Rusiya XİN-in "sığorta quşu"



Səhifə ⇨ 6

## İnsan süni intellekti cilovlaya biləcəkmi?



Səhifə ⇨ 9

## Gürcüstanın suverenliyi Avropa İttifaqının təcrübə hədəfində



**Gürcüstan uzun illərdir ki, Avropa İttifaqı (Aİ) ilə sıx əməkdaşlığa və Avropa ailəsinə inteqrasiyaya önəm verir. Bu istiqamətdə Assosiasiya sazişi, azad ticarət rejimi (DCFTA) və viza liberallaşdırması kimi mühüm addımlar atılıb. Bu sənədlər Tbilisinin Aİ ilə yaxınlaşmaq istəyinin və prosesə verdiyi strateji əhəmiyyətin göstəricisidir.**

**(ardı 3-cü səhifədə)**

## Prezident İlham Əliyevlə şəkil çəkdirmək üçün növbə



Səhifə ⇨ 3

## Avropanın "müharibə xofu"na qarşı həmrəylik yürüşü

***"Qoca qitə" siyasi, iqtisadi məsələlərdən çox, silahlanmaya diqqəti artırıb***



**NATO ölkələrinin müdafiə xərclərini artırması, Skandinaviya dövlətlərinin ittifaqa qoşulmaq qərarları Avropanın bu məsələyə çox ciddi yanaşdığını göstərir. Müharibə qorxusunun artması Avropa ölkələrini daha sürətlə silahlanmağa vadar edir. NATO-nun əsas üzvləri olan Almaniya, Fransa, Polşa və Britaniya müdafiə xərclərini rekord həddə qaldırıblar. İsveç və Finlandiya isə uzun illərdən sonra neytral mövqelərindən imtina edərək, NATO-ya üzv olublar. Bu addımın özü Avropada təhlükə hissinin hansı səviyyəyə çatdığını açıq göstərir.**

*(ardı 5-ci səhifədə)*

## Üzr günahı üstələyəndə...

*Rusiya XİN cinayəti danır, həqiqəti isə inkar edir*



**Görünən odur ki, Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi başda olmaqla, rəsmi strukturlar yalan və qərəzli bəyanatlar səsləndirməklə ikitərəfli münasibətləri geriyə dönüşün olmadığı nöqtəyə çatdırmaq barədə "yekdil" qərar qəbul ediblər. Buna diplomatik dildə sinizm, yəni, səmimiyyətdən uzaq siyasət deyilir.**

Bir il bundan əvvələ kimi özünün normal məcrasında davam edən Bakı–Moskva münasibətlərini bu nöqtəyə gətirən hadisələrin qısa xronikasına nəzər yetirək.

*(ardı 6-cı səhifədə)*

## Paşinyanın linqvistik "qətiyyət"i



Səhifə ⇨ 5

# Azərbaycan Efiopiyada yüksək səviyyəli ekoloji iclas keçirib




**Sentyabrın 6-da Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində Azərbaycan COP29 Sədrliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Afrika qitəsinin iqlim çağırışları: Afrikanın xüsusi vəziyyəti və ehtiyaclarına cavab verilməsi" adlı yüksəksəviyyəli nazirlər iclası baş tutub.**

Tədbirdə 50-yə yaxın ölkə, eləcə də müxtəlif beynəlxalq təşkilat və fondlardan ümumilikdə 200-dən artıq nümayəndə iştirak edib.

İclasın açılış mərasimində COP29 Sədri Muxtar Babayev, COP30-un müəyyən edilmiş sədri Andre Korrea do Laqo, Efiopiyanın planlaşdırma və inkişaf naziri Fitsum Assefa Adela, Afrika İttifaqının Komissiyası sədrinin nümayəndəsi səfir Amr Alcovaili və UNFCCC Afrika danışıqçılar qrupunun sədri Riçard Muyunqi çıxış ediblər.

Çıxış zamanı M.Babayev Afrikada iqlim dəyişmələrindən irəli gələn mövcud çağırışların mənfi təsirlərini azaltmağa qitə ölkələrinin qadir olduğuna və bu xüsusda, COP29-da qəbul edilmiş qərarların əhəmiyyətinə vurğu edib. O, COP29 Sədrliyinin bütün tərəflərin, o cümlədən Afrika qitəsinin maraqlarını nəzərə aldığını və bu istiqamətdə fəaliyyətin davam edəcəyini iştirakçıların diqqətinə çatdırıb.

Plenar müzakirələrdə dövlətlər, habelə beynəlxalq qurum nümayəndələri və maraqlı tərəflər mövzu ətrafında fikir mübadiləsi apararaq beynəlxalq səviyyədə fəaliyyətlə yanaşı, Afrikanın öncülük edəcəyi həll yollarının əhəmiyyətli olacağına diqqət çəkiblər.

*XQ*

# Nümayəndə heyətimiz Çində Qlobal Media və Beyin Mərkəzləri Forumunda

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun rəhbərliyi ilə Sosial Tədqiqatlar Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Medianın İnkişafı Agentliyinin nümayəndələrindən ibarət heyət Çinin Yunnan əyalətində keçirilən Qlobal Cənub Media və Beyin Mərkəzləri Forumunda iştirak edir.**

Bildirilib ki, sentyabrın 6-da açılış mərasimi keçirilən tədbirdə 110 ölkədən 260-dan çox qurumu təmsil edən təxminən 500 nümayəndə, o cümlədən beynəlxalq və regional təşkilatların təmsilçiləri yer alıb.

Forum çərçivəsində MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov və Çin Xalq Respublikasının Sinxua Xəbər Agentliyinin prezidenti Fu Hua arasında imzalanmış "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Çin Xalq Respublikasının Sinxua Xəbər Agentliyi arasında media sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun mübadiləsi mərasimi də həyata keçirilib.

*XQ*




# SOCAR Qətərin "UCC" holdinqi ilə əməkdaşlıq qurur




**SOCAR ilə Qətərin "UCC Holding"i arasında Suriyada və beynəlxalq enerji bazarlarında uzunmüddətli əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumları imzalanıb.**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun, "UCC Holding"in sədri Mutaz Al-Xayyatın və digər yüksək səviyyəli rəsmi şəxslərin iştirakı ilə keçirilən tədbirdə sənədləri SOCAR-ın prezidenti Rövşən Nəcəf və "UCC Holding"in prezidenti Ramez əl Xayyat imzalayıblar.

Anlaşma memorandumları enerji dəyər zəncirinin bütün istiqamətləri, o cümlədən neftin və qazın kəşfiyyatı, hasilatı, nəqliyyat və saxlanma infrastrukturunun inkişafı, emal və neft-kimya layihələri, xam neft, neft məhsulları və aviasiya yanacağının ticarəti və təchizatı, həmçinin yüksək səmərəliliyə malik kombinə edilmiş qaz turbinli elektrik stansiyalarının tikintisi sahələri üzrə əməkdaşlığı əhatə edir.

Azərbaycan və Qətər hökumətlərinin dəstəyi ilə Suriya Ərəb Respublikasında enerji sektorunun bərpasının sürətləndirilməsinə dair imzalanmış sənəd Suriyanın ümumi inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Tərəfdaşlıq Suriyanın əsas enerji infrastrukturunun müasir təcrübələr və standartlar əsasında yenidən qurulmasına töhfə verəcək.

*XQ*

# "Boşluğa xütbə" filminin Venesiya təqdimatı

**82-ci Venesiya Beynəlxalq Film Festivalının "Müsabiqədənkənar bədii filmlər" bölməsində tanınmış azərbaycanlı rejissor Hilal Baydarovun "Boşluğa xütbə" filminin təqdimatı olub.**

Mədəniyyət Nazirliyi və Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə sentyabrın 5-də nümayiş olunan ekran əsəri mütəxəssislər və tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Filmin ssenari müəllifləri Hilal Baydarov və Aysu Akcan, prodüseri Orxan Fikrətoğludur. Azərbaycan, Meksika və Türkiyə kinematoqrafçılarının ortaq işi olan filmdə əsas rolları Hüseyn Nəsirov, Məryəm Nağıyeva, Rəna Əsgərova, Elşən Abbasov, Orxan İsgəndərli oynayırlar.

Qeyd edək ki, 82-ci Venesiya Beynəlxalq Film Festivalı avqustun 27-də başlayıb və bu gün başa çatır.

*XQ*



# İtaliyanın Rai telekanalı Qarabağdan reportaj yayımlayıb




**İtaliyanın Rai telekanalı Azərbaycanın üzləşdiyi mina problemi, eləcə də Qarabağda aparılan bərpa və yenidənqurma layihələrindən bəhs edən reportaj yayımlayıb. Kanalın ölkəmizə ezam olunan jurnalisti Barbara Karfanya dünyada mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələrdən biri olan Azərbaycanın üzləşdiyi problemdən bəhs edib.**

Reportajda işğaldan azad olunmuş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirklənmə səviyyəsi barədə məlumatlar diqqətə çatdırılır. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməliyyat rəhbəri Xaliq Zülfüqarov ölkəmizdə həyata keçirilən minatəmizləmə fəaliyyətindən danışıb.




ANAMA-nın keyfiyyətə nəzarət idarəsinin rəisi Elnur Qasımov qurumun humanitar minatəmizləmə fəaliyyəti, minatəmizləmənin bərpa və yenidənqurma işlərindəki önəmi barədə ətraflı məlumat verib.




Reportajda, eyni zamanda, Ağdam və Şuşada aparılan bərpa və yenidənqurma layihələrindən bəhs olunur. İşğal dövründə yararsız vəziyyətə düşmüş və dağıdılmış tikililərin yenidən bərpa olunduğu, yeni infrastruktur layihələrinin həyata keçirildiyi, Şuşa və Ağdamın tikinti-quruculuq meydançasına çevrildiyi bildirilir.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev SSRİ-nin dağılmasından sonra başlayan hərbi təcavüz və 30 ilə yaxın davam edən işğal dövründə yerlə-yeksan edilən Ağdamın "Qafqazın Xirosiması" adlandırıldığını bildirib.

Prezidentin köməkçisi, həmçinin hərbi münaqişə aradan qalxdıqdan sonra Azərbaycanın işğala məruz qalmasına baxmayaraq, Ermənistana sülh təklif edən ölkə olduğunu vurğulayıb.

Hikmət Hacıyev, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə İtaliya şirkətlərinin fəaliyyətinin əhəmiyyətindən bəhs edib, həmin şirkətlərin Orta Asiyada genişlənmə üçün strateji pasportu təmsil etdiklərini bildirib. Vurğulayıb ki, İtaliyanın "Leonardo" şirkəti Xəzər regionunda fəaliyyətini genişləndirib və bu sahədə yeni bazarları inkişaf etdirərək Orta Asiya ölkələri ilə tərəfdaşlıq qurub.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı İsmayıl İsmayılov "Böyük Qayıdış" Proqramı çərçivəsində insanların doğma yurdlarına qayıdışı prosesindən danışıb, şəhərdə inşa olunan hotel və mehmanxanalar barədə məlumat verib.

*XQ*

# Gəmi döyüşü təlimləri



**Hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrində "Gəminin sualtı təxribat əleyhinə müdafiəsinin təşkili" və "Gəminin dayanacaqda davamlılıq uğrunda mübarizəsinin təşkili" mövzularında təlimlər keçirilib.**

Məqsəd şəxsi heyətə gəminin sualtı diversiya əleyhinə müdafiəsinin düzgün təşkili yollarını öyrətmək, eləcə də gəminin dayanacaqda baş verə biləcək fövqəladə hallar zamanı davamlılıq uğrunda mübarizəyə hazırlıq səviyyəsini yoxlamaq olub.

Təlimlərdə, həmçinin gəminin dayanacaqda yanğına qarşı hazırlıq vəziyyəti, yaralılara ilkin tibbi yardımın göstərilməsi və onların ərazidən təxliyə olunması qaydaları praktiki olaraq məşq etdirilib. Qəza partiyasının davamlılıq uğrunda mübarizə fəaliyyəti, eləcə də gəmidə baş verə biləcək yanğınların növünə və yerinə uyğun tətbiq ediləcək mübarizə üsulları yerində göstərilərək yoxlanılıb.

Keçirilmiş təlimlər müvəffəqiyyətlə başa çatıb.

*XQ*

# Prezident İlham Əliyevlə şəkil çəkdirmək üçün növbə

## Macarıstanın XİN rəhbərinin dediklərinə sözardı

**“15 il əvvəl Macarıstanla Azərbaycan arasında qarşılıqlı hörmət əsasında tərəfdaşlıq qurulanda bəzi Avropa liderləri bu təşəbbüsə istehza ilə yanaşıb. Bu gün isə həmin liderlər Azərbaycan Prezidenti ilə şəkil çəkdirmək üçün Bakıda növbəyə dururlar”.**



Bu fikri Macarıstanın xarici işlər naziri Peter Siyarto Budapeştdə Azərbaycan-Macarıstan Hökumətlərarası İqtisadi Əməkdaşlıq üzrə birgə Komissiyanın 11-ci iclasında dilə gətirib. Nazir əlavə edib ki, Bakı ilə əməkdaşlıq Budapeştə enerji, əczaçılıq, kənd təsərrüfatı və tikinti sahələrində böyük nəticələr qazandırıb: “Mərkəzi və Şərqi Avropanın aparıcı inteqrasiya olunmuş neft və qaz korporasiyası MOL Group və MVM indi Azərbaycanın ən böyük neft-qaz yataqlarında səhmlərə sahibdir və beynəlxalq bazarda sadə alıcıdan enerji istehsalçısına çevrilib”.



Əlbəttə, cənab Siyartonun bildirdikləri Macarıstanın zamanında düz yol tutduğunun, strateji davrandığının uca səslə bəyan edilməsidir. Onun söylədikləri, habelə, Avropanın lider institutundakı geniş düşüncə sisteminin kasadlığının, rasional və proqmatik siyasət yürütmək qabiliyyətinin zəifliyinin, bəzən isə tamamilə mövcudsuzluğunun göstəricisidir. Ən başlıcası isə nazirin dilə gətirdiyi sözlər Azərbaycan dövlətinin beynəlxalq xarici siyasət uğurunun növbəti dəfə vurğulanmasıdır. Uğurun müəllifi isə Prezident İlham Əliyevdir.

Bəli, cənab İlham Əliyevin həyata keçirdiyi kurs dünyanı Azərbaycanla həsablaşmağa məcbur edən dönməz trayektoriyaya malik son dərəcə ciddi alətdir. Əlbəttə, hazırda beynəlxalq müstəvidə, o cümlədən “köhnə qitə”də ölkəmizə qarşı hədyan yağdıranlar tapılır. Ancaq yekunda belələrinin miskinlikləri və rəzillikləri, yalnız qərəzə kökləndikləri üzə çıxır. Çox tez-tez Prezident İlham Əliyevin Avropaya bir səfəri ilə onların mənfi yüklü ritorikalarının regionun ictimai rəyində heç bir önəm daşımadığının şahidi oluruq. Ölkəmizin lideri sanki onları tarimar edir.

Dövlətimizin başçısı getdiyi ölkələrdə elə yüksək səviyyədə qarşılanır ki, bir anlıq sual edirsən: Yəni, bəziləri rüsvayçılıqla üzləşməkdən həzz alırlar? Görünür, əvvəl rüsvay olub sonra Prezident Əliyevlə şəkil çəkdirərək düşdüyü acınacaqlı duruma rəng qatanlar da var. Hər halda, cənab Siyarto nə dediyinin, hansı mesajı verdiyini yaxşı fərqindədir.

Qeyd edək ki, cənab Siyartonun səsləndirdiyi fikirlər, eyni zamanda, Azərbaycanın beynəlxalq miqyasda ciddi tərəfdaş simasının da növbəti dəfə vurğulanmasıdır. Macarıstanın XİN rəhbəri 15 il əvvəlki dövrü yada salır. O dövrü ki, onda cənab İlham Əliyev yeddi il idi ölkəmizə rəhbərlik edirdi. Deməli, düşünülmüş kurs üzərindən 15 il keçdikdən sonra Avropa liderlərini ölkəmizin başçısı ilə şəkil çəkdirmək üçün növbəyə düzüb. Azərbaycan dövlətinin həyata keçirdiyi siyasi kursun uzaqgörənliyini bildirəndə məhz bunu nəzərdə tuturduq. Həqiqətən, ortada qürur duyulacaq mənzərə var.

Bəli, cənab Siyartonun bildirdikləri, ümumən, dəfələrlə özünü göstərən reallığın növbəti dəfə səslənməsi idi. Reallıq isə İlham Əliyev şəxsiyyətinə yüksək dəyər parametrlərinə malikdir. Bu yerdə Serbiya Prezidenti Aleksandr Vuçiçin Prezident İlham Əliyevlə bağlı fikirlərini yada salaq. Cənab Vuçiç 2022-ci il oktyabrın 1-də Sofiyada keçirilmiş Cənub-Şərqi Avropa Ölkələrinin Dövlət Başçılarının görüşü və Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi səciyyəli toplantıda bunu demişdi: “Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada bilmirəm, o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim”.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Sofiyadakı toplantıya fəxri qonaq qismində dəvət olunmuşdu. Mərasimdə, həmçinin, Avropa Komissiyasının Prezidenti Ursula fon der Leyen, Bolqarıstan, Yunanıstan, Serbiya, Şimali Makedoniya və digər ölkələrin dövlət başçıları iştirak etmişdilər. IGB interkonnektorunun istifadəyə verilməsi isə Avropa üçün strateji hadisə idi. Çünki Azərbaycan qazının Bolqarıstan və digər Balkan ölkələrinə nəqlinin başlanması qitənin enerji təhlükəsizliyi baxımından dönüş nöqtəsi sayılırdı və bu dönüşün müəllifi ölkəmizdir.

Yəni, cənab Vuçiç açıqlamasa da, İlham Əliyev prezidentliyinin sirrinin nədən ibarət olduğunu gözəl bilir və əslində, o, indi Siyartonun açıq formada səsləndirdiyi fikirləri o zaman bir qədər diplomatik tərzdə dilə gətirmişdi. O, Avropa liderlərinə, təxminən, bunu demişdi: Siz İlham Əliyevin siyasəti qarşısında yenik düşməyə məhkum oldunuz, mən isə onunla dostam. Axı Serbiya Prezidentinin dövlətimizin başçısına dostluqdan qaynaqlanan münasibətini ifadə edən başqa fikirlər də var. Məsələn, o, 2022-ci il noyabrın 23-də dövlətimizin başçısı Belqradda olarkən demişdi: “Prezident Əliyev etibarlı tərəfdaşdır. Onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Mən, həqiqətən, şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib. Ölkəmizin təhlükəsizliyini təmin edəcəyik, ən azı cənab Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını edəcəyik”.

Deməli, cənab İlham Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını etmək. Macarıstanın XİN rəhbərinin təbirincə desək, hazırda dövlətimizin başçısı ilə şəkil çəkdirmək üçün növbəyə duran Avropa liderlərinin neçəsinin düşüncəsində öz ölkəsinə xidmət amalının mövcudluğunu demək çətindir. Axı kosmopolit zamanda yaşayırıq. Eyni zamanda, həmin liderləri də görürük. Tutaq ki, Fransa Prezidenti Emmanuel Makronu. Heç şübhəsiz, avantürist obraza malik Makronun ağlının ucundan belə Fransa xalqına xidmət keçmir. O, sadəcə özünütəsdiq barədə düşünür, hakimiyyət kreslosundan möhkəm yapışmağın dərdindədir. Təəssüf ki, Avropada Makron kimilər kifayət qədərdir və “köhnə qitə”nin böhranın şərtləndirən amil həm də budur. Məhz buna görədir ki, ABŞ Prezidenti Donald Tramp region liderlərini qarşısında otuzdurub onlara dərs keçər kimi davranır. Ağ Ev rəhbəri, sanki, balaca uşaqlara nə isə öyrədir. Birləşmiş Ştatlar Prezidentinin dövlətimizin başçısına necə yüksək münasibət göstərdiyini isə ötən ay bütün dünya gördü.

Prezident İlham Əliyevin fəaliyyətinə dəyər və rəğbət baxımından dilə gətirilmiş fikirlərin sayı-hesabı yoxdur və məqsədimiz heç də onların hamısını diqqətə çatdırmaq deyil. Həm də ona görə bu məqsəddə deyilik ki, həmin fikirləri bir yazıya sığışdırmaq mümkünsüzdür. Ümumiləşdirməaparaq sonda deyək ki, dövlətimizin başçısının ölkəmiz naminə gerçəkləşdirdiyi fəaliyyətin miqyası çox böyükdür və ona dünyada rəğbət formalaşdıran başlıca amil də məhz budur. Nəzərə alaq ki, Prezident İlham Əliyev şəxsiyyətinə rəğbət müasir müstəqil Azərbaycana, Azərbaycan xalqına rəğbətdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Gürcüstanın suverenliyi Avropa İttifaqının təcrübə hədəfində




**(əvvəli 1-ci səhifədə)**

Son dövrlər Aİ-nin Gürcüstana yönəlik bəzi tələbləri və gözləntiləri ölkə daxilində müəyyən narazılıqlara səbəb olub. Gürcüstan cəmiyyətində belə bir sual getdikcə daha çox səslənir: Avropa dəyərləri ilə Gürcüstanın milli dəyərləri arasında uyğunluq varmı? Bu inteqrasiya prosesi Gürcüstanın suverenliyinə və qərarvermə hüququna nə dərəcədə təsir edir?

Baş nazir İrakli Kobaxidze son çıxışlarında bu suallara cavab verməyə çalışıb. Hökumət başçısı qeyd edib ki, Gürcüstan Avropa ilə əməkdaşlığa hazırdır, amma bu əməkdaşlıq ölkənin milli maraqları və daxili-siyasi prioritetləri ilə ziddiyyət təşkil etməməlidir. O, Brüsselin Tbilisi ilə açıq və bərabərhüquqlu dialoqa girməkdən yayınmasını tənqid edərək bunu arqument çatışmazlığı ilə izah edib: “Biz Aİ bürokratiyasına bir daha müraciət edirik: gəlin, masa arxasında oturaq və danışaq. Əgər arqumentləriniz varsa, biz dinləməyə hazırıq. Amma bu danışıqlardan yayınmanız göstərir ki, əslində arqumentiniz yoxdur”.

Baş nazir vurğulayıb ki, Brüssel Tbilisidən eynicinsli nikah və cinsin dəyişdirilməsi ilə bağlı məhdudiyyətlərin qanunvericilikdən çıxarılmasını tələb edir ki, bu da mümkün deyil: “Bu, açıq şantajdır. Mən tam məsuliyyətlə deyirəm ki, Gürcüstanda heç kim mülki reyestrdə öz cinsini dəyişdirə bilməyəcək. Bizim xalqın iradəsi və milli kimliyimiz bu tələblərlə uyğun gəlmir. Aİ-nin bu cür tələblər irəli sürməsi absurd və qəbuledilməzdir”.

Brüsselin oxşar tələbləri yalnız Gürcüstanla məhdudlaşmır. Kobaxidze misal olaraq Macarıstanı göstərib və qeyd edib ki, rəsmi Budapeşt də oxşar mövqeyinə görə Aİ-nin maliyyə dəstəyindən məhrum edilib. Onun fikrincə, yaranmış vəziyyət Aİ daxilində alternativ baxışlara qarşı dözümsüz yanaşmanın və bürokratik aparatın birtərəfli siyasətinin nəticəsidir.

İrakli Kobaxidzenin çağırışı təkcə Aİ-yə ünvanlanan siyasi bəyanat deyil, eyni zamanda, Gürcüstanın gələcək istiqamətinə dair strateji mesajdır. Bəli, Gürcüstan Qərblə əməkdaşlıqda maraqlıdır, lakin bu əməkdaşlığın forması və şərtləri qarşılıqlı hörmət və suverenlik prinsiplərinə əsaslanmalıdır. O da məlumdur ki, xarici tərəfdaşlarla münasibətlərdə dialoq və qarşılıqlı anlayış vacibdir, fəqət, diktə və ya siyasi şantaj kimi addımlar milli maraqların və cəmiyyətin düşüncəsinə rəğmən getdikcə əks-təsir yaradır, Tbilisini Aİ-dən uzaqlaşdırır.

Ümumiyyətlə, Gürcüstan hökumətinin son açıqlamaları ölkənin Avropa ilə münasibətlərində yeni mərhələyə keçidiyini göstərir. Bu mərhələ yalnız hüquqi və institusional yox, eyni zamanda, ideoloji və dəyərlər müstəvisində yeni balansların formalaşmasını tələb edir.

***

Qeyd edək ki, tərəflər arasında münasibətlərə ötən il keçirilən parlament seçkilərinin təsiri az olmayıb. Bu gün də Qərb həmin seçkilərin nəticəsinin ləğv olunmasını və təkrar seçkilərin keçirilməsini tələb edir. Artıq qarşıdan gələn, yəni, oktyabrın 4-də baş tutacaq yerli seçkilər də ölkənin daxili siyasi gündəminin əsas prioritetlərindən birinə çevrilib. İndidən yerli seçkilər Gürcüstanın Aİ ilə münasibətlərində yeni fikir ayrılığına yaradıb. Brüssel bu seçkilərdə şəffaflığı, seçki mühiti və siyasi plüralizmin təmin olunması ilə bağlı narahatlıqlarını bildirib. Bu narahatlıq isə medianın, vətəndaş cəmiyyətinin və müxalifətin fəaliyyət imkanlarının məhdudlaşdırıldığı ilə bağlıdır. Brüssel hesab edir ki, bu amillər demokratik seçki mühitinin zəifləməsinə səbəb olur. Xüsusilə, Qərb “Xarici təsirin şəffaflığı haqqında” Qanunun qəbulunu heç cür həzm edə bilmir. Çünki sənəd QHT-lərin qeydiyyatını tələb edir. Onların da əksəriyyəti xarici mənbələrdən maliyyələşir və onların maraqlarına xidmət edir.

Gürcüstan hakimiyyəti öz növbəsində Aİ-nin yerli seçkilərlə bağlı narahatlığını əsasız və siyasi manipulyasiya sayır. Tbilisiyə görə, seçkilərin keçirilməsi ölkənin daxili suveren məsələsidir və xalqın iradəsindən qaynaqlanır. Eyni zamanda, Gürcüstan rəsmiləri Aİ-nin mövqeyini “ikili standartlar” və daxili işlərə müdaxilə kimi qiymətləndirir, Qərbdən obyektiv yanaşma tələb edirlər.

***

Gürcüstanın Aİ ilə münasibətlərindəki müəyyən etimad çatışmazlığı şəraitində yerli hakimiyyət orqanlarına seçkilərdə iştirakla bağlı müxalifət arasında fikir ayrılığı qalır. Müxalifətin bir hissəsi seçki prosedurunda iştirak etməyi planlaşdırdığı halda, digərləri inqilabi ssenarilər hazırlayır və iğtişaşlara hazırlaşır. “Vahid Milli Hərəkat”ın siyasi şurasının sədri Levan Xabeişvilinin oktyabrın 4-də, yerli hakimiyyət orqanlarına seçkilər günü hökumətin “dinc yolla devrilməsi” planları ilə bağlı bəyanatları Gürcüstanın siyasi spektrində geniş rezonans doğurub.

Xabeişvili bir müddət əvvəl “PalitraNews” telekanalının efirində deyib ki, seçki günü hakimiyyət “xüsusi əməliyyat” keçirəcək. O, ictimaiyyəti birgə mübarizəyə çağırıb: “4 oktyabr hakimiyyət dəyişikliyi üçün “təbii son tarixdir”.

Milli Hərəkatın keçmiş liderinin mövqeyini onun partiyadaşları da dəstəkləyir. Partiyanın baş katibinin müavini İrakli Pavlenişvili vurğulayıb ki, indiki siyasi şəraitdə inqilab lazımdır: “Hamının təcrid və həbslərə məhkum olduğu vəziyyətdən yeganə çıxış yolu dinc etirazla hakimiyyətin dəyişməsidir”. Müxalifətdəki “Rustaveli prospekti hərəkatı”nın lideri Paata Burçuladze də oktyabrın 4-nü – yerli hakimiyyət orqanlarına seçkilər gününü “tarixi qələbə və hökumətin dinc yolla devrilməsi günü” elan edib. Amma bir sıra müxalif partiyalar bu mövqe ilə razılaşmır. Xüsusən “Qirçi” partiyasının sədri və Tbilisi meri postuna namizəd İaqo Xviçia Xabeişvilinin kampaniyasını əsassız adlandırıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də müxalifət siyasətçilərinin “dövlətin dinc yolla devrilməsi” ilə bağlı bəyanatlarına münasibət bildirib: “Dövlət öz yerindədir və heç kimə onu hər hansı bir yolla devirməyə imkan verilməyəcək”.

O, daha sonra deyib: “Biz bu illər ərzində cəmiyyətə söz vermişik ki, heç kimə bunu etməyə imkan verməyəcəyik və sözümüzü tutmuşuq, indi də söz veririk və bu sözə mütləq əməl edəcəyik. Baş nazirin sözlərinə görə, bu cür açıqlamalar radikal müxalifətin simasını göstərir: “Bütün bu illər ərzində onlar davamlı olaraq hökuməti devirməkdən, inqilabdan danışırlar. Onların uğur qazanmaması isə onların sifətindən, ruhundan və münasibətindən xəbər verir. Xarici agentlər belə hərəkət edirlər”.

Hadisələrin fonunda Gürcüstan Prezidenti Mixeil Kavelaşvili “Güclü Gürcüstan – Lelo” müxalifət partiyasının liderləri Mamuka Xazaradze və Badri Japaridzeni əfv edib. Prezident açıqlamasında bildirib ki, bu qərar yerli özünüidarəetmə seçkilərinin məhdud rəqabət şəraitində keçirildiyi ilə bağlı deyilənlərin qarşısını almaq məqsədi daşıyır. Prezident, həmçinin bütün seçki subyektlərinin seçkilərin sağlam və sakit şəraitdə keçirilməsinə dəstək verməyə çağırıb. Beləliklə, müxalifət daxilindəki mövcud parçalanma onların yerli seçkilərdə məğlubiyyətə uğrayacağından xəbər verir.

***

Bütün bunlara baxmayaraq, Gürcüstan və Aİ arasında dialoq tam kəsilməyib. Müəyyən fikir ayrılıqları olsa da, əməkdaşlıq kanalları açıqdır. Gürcüstan rəsmiləri Aİ nümayəndələrini açıq müzakirəyə dəvət etməklə konstruktiv dialoq imkanlarını qoruyub saxlamağa çalışırlar. Bu, bir tərəfdən Gürcüstanın inteqrasiya yolundan dönmədiyini, digər tərəfdən bu yolu öz milli şərtləri ilə getmək istədiyini göstərir.

4 oktyabr seçkilərinin nəticələri yalnız Gürcüstanın daxili siyasi tarazlığı üçün deyil, həm də Aİ ilə münasibətlərinin gələcək formatı üçün həlledici rol oynayacaq. Əgər tərəflər bir-birini siyasi niyyətlərə görə deyil, real proseslərə və nəticələrə əsaslanaraq qiymətləndirsə, fikir ayrılıqları aradan qaldırıla və yeni əməkdaşlıq imkanları formalaşa bilər. Əks təqdirdə, qarşılıqlı inamsızlıq dərinləşə və Gürcüstanın avrointeqrasiya prosesini ləngidə bilər.

**P.S.** *Gürcüstan Xarici İşlər Nazirliyi avqustun 31-də tövsiyələrin yerinə yetirilməsi ilə bağlı hesabatın Avropa Komissiyasına göndərildiyini bildirib. Daha əvvəl, iyulun 16-da Miqrasiya Məsələləri üzrə Avropa Komissiyası Gürcüstan XİN-dən avqustun sonuna qədər vizasız rejimin saxlanması ilə bağlı şərtlərin yerinə yetirilməsi barədə məlumat verməyi xahiş edib. Bu şərtlərin arasında “Xarici agentlər haqqında” Qanunun və LGBT təbliğatının qadağan edilməsinin ləğvi də var. Amma hələlik hesabatla maraqlanan yoxdur. Belə bir təəssürat yaranıb ki, Avropa Komissiyası Gürcüstanın göndərdiyi məktubu oxumağa tələsmir...*

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Cənubi Qafqazda sabitliyin təməli qoyulur




(əvvəli 1-ci səhifədə)

Bununla belə, Azərbaycan və Ermənistanın dövlət sərhədinin delimitasiyası və demarkasiyası haqqında saziş imzalayacaqları sülh sazişinin paraflanmış mətnində bilavasitə öz əksini tapıb. Sazişin VI maddəsində bununla bağlı deyilir: “Tərəflər hazırkı sazişin I maddəsindən irəli gələn öhdəliklərinə tam uyğun olaraq, onlar arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası haqqında sazişin bağlanması məqsədilə müvafiq sərhəd komissiyaları arasında bu komissiyaların razılaşdırılmış əsasnamələri əsasında vicdanla danışıqlar aparacaqlar”.

Sazişin I maddəsində isə bildirilib ki, tərəflər, keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrildiyini və beynəlxalq birlik tərəfindən bu şəkildə tanındığını təsdiq edərək, bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər.

Sentyabrın 5-də bu istiqamətdə növbəti addım atılıb. Həmin gün Baş nazirin müavini Şahin Mustafayevin və onun ermənistanlı həmkarı Mqer Qriqoryanın rəhbərliyi ilə iki ölkənin nümayəndə heyətlərinin Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazisinə qarşılıqlı səfərləri baş tutub. Bununla bağlı yayılan məlumatda bildirilib ki, avqustun 8-də Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq, tərəflər kommunikasiyaların yaradılması sahəsində fəaliyyətlərin sinxronlaşdırılması məqsədilə sərhəd xəttinin müvafiq sahələrinin/hissələrinin delimitasiyası və minalardan təmizlənməsi, həmçinin zəruri infrastrukturun bərpası, tikintisi və onların icra müddətləri ilə bağlı məsələləri müzakirə ediblər. Nümayəndə heyətlərinin rəhbərləri Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti görüşünün təşkili ilə bağlı fikir mübadiləsi aparıblar.

Beləliklə, bir daha aydın olur ki, Vaşinqtonda imzalanan sənədlər, əslində, təkcə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına xidmət etmir. Bu, həm də bütövlükdə Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən tarixi hadisədir. Çünki ilk dəfədir ki, iki qonşu dövlət gərginlik ritorikasını kənara qoyaraq, beynəlxalq aləmdə tanınan prinsiplərə əsaslanan bir yol xəritəsini ortaya qoyurlar. Azərbaycan və Ermənistanın ABŞ kimi güclü vasitəçinin iştirakı ilə əldə etdikləri razılaşmalar,




sözün əsl mənasında, bölgəmizin gələcəyinə işıq salır. Prezident İlham Əliyevin avqustun 26-da Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalında yayımlanan müsahibəsi zamanı bildirdiyi kimi, avqustun 8-də Vaşinqtonda baş verən hadisələr, əslində, qarşıdurmanın və gərginliyin sonu deməkdir. Dövlətimizin başçısı prosesi qiymətləndirərkən deyib: “Qeyd etdiyim kimi, danışıqlar bir neçə il davam etdi və nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı. Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur. Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var – Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur. Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq”.

Lakin Prezidentin sözlərinə görə, fakt budur ki, Azərbaycan və Ermənistanın Ağ Evdə Prezident Trampın iştirakı ilə bu sənədi paraflaması müharibənin başa çatdığını göstərir. Bu, mərhələlərlə 30 ildən artıq davam edən müharibənin sonudur və həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar açır.

İlham Əliyevin dediyi kimi, bu sənəd artıq müharibənin sonu deməkdir. Dövlət başçısının sözləri sadəcə siyasi bəyanat deyil, həm də gələcəyə inamın ifadəsidir. O, açıq şəkildə bildirdi ki, Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı müddəalar aradan qaldırıldıqdan sonra formal olaraq sülh sazişi də imzalanacaq. Bu, həm siyasi iradənin, həm də qarşılıqlı etimadın göstəricisidir. Ən önəmlisi isə budur ki, tərəflər artıq real praktiki addımlar atmağa başlayıblar.

Sentyabrın 5-də baş tutan qarşılıqlı səfərlər də bunu təsdiqləyir. Hər iki ölkədən baş nazirlərin müavinlərinin rəhbərlik etdikləri nümayəndə heyətləri sərhəd xəttinin müxtəlif hissələrində görüşlər keçirib, infrastrukturun bərpası və minalardan təmizlənməsi ilə bağlı məsələləri müzakirə ediblər. Bu fakt özü göstərir ki, Vaşinqtonda imzalanmış sənədlər kağız üzərində qalmayıb, artıq həyati əhəmiyyət daşıyan sahələrdə tətbiq olunur.

Dövlət İdarəçilik Akademiyası rektorunun müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov XQ-yə açıqlamasında bildirdi ki, əslində, belə addımlar sülhün bərqərar olmasının ən real zəmanətidir. Onun sözlərinə görə, əvvəllər şərti sərhədlər boyunca hərbi qarşıdurmalar, atəşkəs pozuntuları baş verirdisə, indi həmin ərazilər əməkdaşlıq və etimad quruculuğunun mərkəzinə çevrilməkdədir: “Bu dəyişiklik həm də xalqların psixologiyasına təsir göstərir. İnsanlar artıq silah səsləri yox, infrastruktur layihələrinin uğurla icrası haqqında xəbərlər eşitmək istəyirlər. Azərbaycan və Ermənistan cəmiyyətləri uzun illərdən sonra ilk dəfə olaraq, sabitlik və qonşuluq münasibətləri barədə düşünməyə başlayıblar. Bölgədə yaranan yeni ab-hava, şübhəsiz ki, yalnız iki ölkə üçün deyil, bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Çünki sülhün möhkəmlənməsi həm də regional kommunikasiyaların açılması, iqtisadi inteqrasiyanın genişlənməsi, ticarət və nəqliyyat layihələrinin reallaşması deməkdir. Cənubi Qafqazın mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi artıq sadəcə nəzəri mülahizə deyil, real perspektivdir. Bu isə Azərbaycanın da, Ermənistanın da iqtisadi imkanlarını yaxşılaşdıracaq”.

Z.Məmmədovun fikrincə, bütün bunlar bir daha təsdiqləyir ki, sülh prosesində ən vacib amil siyasi iradədir: “Azərbaycan dəfələrlə sübut edib ki, regionda dayanıqlı sülhün və sabitliyin təmin olunmasında maraqlıdır. Ermənistan da bu mövqeyi bölüşməyə başladıqca, uzun illərin qarşıdurması tədricən keçmişə çevriləcək. Sülh və əməkdaşlıq yoluna qədəm qoyan ölkələr isə həm beynəlxalq aləmdə dəstəklənəcək, həm də öz vətəndaşlarına layiqli gələcək bəxş edəcəklər.

*Səxavət HƏMİD*
*XQ*

# “Təyyarəmiz Bakıdan Təbrizə uçur”




## *Qonşuluq və qardaşlıq körpüləri xoş niyyətlərə qapı açır*

**Bir neçə illik fasilədən sonra “Azərbaycan Hava Yolları” QSC Bakı–Təbriz–Bakı marşrutu üzrə birbaşa təyyarə reyslərini bərpa edib. İlk baxışda, sadəcə, aviasiyada sərnişindaşıma hadisəsi təsirini bağışlayan bu addım, əslində, Azərbaycan–İran münasibətlərində yeni mərhələnin başlandığını göstərir. Bu mərhələnin startı İran Prezidenti Məsud Pezeşkianın cari ilin aprelində Bakıya ilk səfərində verilmişdi. Təyyarənin Təbrizə enişi xalqlar arasında sosial-humanitar yaxınlaşmanı gücləndirir və dövlətlərarası münasibətlərin yumşalmasının praktik təzahürünə çevrilir.**

Son 3-4 ildə Cənubi Qafqazda güc balansının dəyişməsi, yeni nəqliyyat dəhlizlərinin gündəmə gəlməsi və regiondakı geosiyasi maraqlar iki qonşu arasında fikir ayrılıqlarını artırmışdı. Lakin hər iki tərəf anlayır ki, regionun sabitliyi və inkişafı yalnız əməkdaşlıq və qarşılıqlı anlaşma əsasında mümkündür. Bakı–Təbriz reysinin bərpası da məhz bu anlayışın praktiki nəticəsi kimi qiymətləndirilə bilər.

Təbrizdə yaşayan azərbaycanlılar üçün Bakı ilə birbaşa əlaqələrin bərpası mədəni, sosial və iqtisadi baxımdan mühüm əhəmiyyət daşıyır. Reysin Prezident İlham Əliyevin tapşırığı ilə bərpası Azərbaycan rəhbərliyinin İranla münasibətlərin inkişafına dair siyasi iradəsinin nümayiş hesab olunmalıdır. Çünki diplomatiya yalnız bəyanatlarla deyil, gündəlik həyatda təsirini göstərən praktiki addımlarla ölçülür. Bakı–Təbriz uçuşları da bu baxımdan yeni etimad körpüsü rolunu oynayır. Bakıdan Tehrana hava marşrutunun bərpa olunacağı xəbəri münasibətlərin strateji səviyyədə canlandığını göstərir. Əgər Təbriz reysi xalq diplomatiyası və mədəni inteqrasiyanı gücləndirirsə, bunun ardınca işə düşən Tehran reysi dövlətlərarası münasibətlərin institusional bazasının möhkəmlənməsinə xidmət edir. Proseslərin qlobal konteksti də diqqətdən kənarda qalmamalıdır. Geosiyasi gərginliklərin artdığı şəraitdə region ölkələrinin əməkdaşlıq yolunu seçməsi təqdirəlayiq haldır. Azərbaycan və İranın nəqliyyat-logistika sahəsində birgə fəaliyyəti, xüsusilə də Şimal–Cənub və Orta Dəhliz layihələri çərçivəsində strateji nəticələr vəd edir. Bu iri layihələr ölkələrin tranzit potensialını beynəlxalq miqyasda artırır. İranın coğrafi mövqeyini nəzərə alsaq, Cənubi Asiya, Yaxın Şərq və Hind okeanı hövzəsini Avrasiyanın mərkəzi ilə birləşdirən əsas oyunçulardan biri kimi Bakı–Təbriz reysi də bu kontekstdə iki ölkənin tranzit əməkdaşlığını gücləndirən mühüm siyasi mesaj kimi qiymətləndirilə bilər. Orta Dəhliz layihəsinin uğurlu icrası isə qlobal ticarət sistemində yeni balansların formalaşmasına səbəb olacaq.

Azərbaycanın prosesdə rolu alternativsizdir və İranla münasibətlərin sabitliyi bu xəttin daha dayanıqlı inkişafına əlavə imkanlar açır. Əgər Bakı ilə Tehran arasında iqtisadi əməkdaşlıq genişlənərsə, Orta Dəhlizin İran ərazisindən keçən alternativ marşrutları da gündəmə gələ bilər. Bu, layihənin daha çevik və dayanıqlı olmasına şərait yaradacaq.

İqtisadi müstəvidə Bakı–Təbriz aviareysinin bərpası hər iki ölkə üçün çoxşaxəli perspektivlər açır. Müntəzəm uçuşların təşkili işgüzar dairələr arasında birbaşa əlaqələrin intensivləşməsinə, ticarət dövriyyəsinin genişlənməsinə və sərmayə axınının artmasına təkan verəcək. Bu, turizm sektorunu canlandırmaqla yanaşı, iki ölkə arasında regionlararası iqtisadi inteqrasiyanı da möhkəmləndirəcək. İqtisadi əməkdaşlığın qarşılıqlı şəkildə dərinləşməsi ikitərəfli münasibətlərə təminat, bölgədə uzunmüddətli sabitliyin təmin olunmasına töhfələr verəcək.

Məsələyə humanitar müstəvidən yanaşdıqda Bakı–Təbriz təyyarə reysinin daha geniş təsir imkanlarına malik olduğunu görmək mümkündür. Bu marşrut Təbrizdə yaşayan milyonlarla azərbaycanlıya səyahət imkanı yaratmaqla yanaşı, mədəni bağların möhkəmlənməsinə töhfə verəcəyi şübhəsizdir. Eyni zamanda Arazın o tayı ilə ünsiyyətin intensivləşməsinə, humanitar diplomatiyanın güclənməsinə zəmin yaradır. Bu təmaslar gələcəkdə Azərbaycan–İran münasibətlərində diaspor amilinin də fəal rol oynamasına şərait yaradacaq. Təki məlum siyasi düşərgə ikitərəfli xoş və təmənnasız niyyətə kölgə salmaq səylərindən əl çəksin.

*Nəzrin ELDARQIZI*
*XQ*

### Ekspert rəyi



**Cavid VƏLİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü**

Müəyyən fasilədən sonra Azərbaycandan Təbrizə sərnişin təyyarəsinin uçuşlarının bərpası son dövrlər Bakı və Tehran arasında müşahidə olunan müsbət dəyişikliklərin növbəti təzahürüdür. Siyasi mənzərə ondan ibarətdir ki, hər iki tərəf qarşılıqlı münasibətlərin normal məcraya düşməsini istəyir və bundan ötrü müsbət addımlar atır. Bu baxımdan, ən başlıca amil etimad və etibardır. AZAL-ın təyyarəsinin Təbrizə enməsi iki ölkə arasında etimad mühitinin yaranmasına və möhkəmlənməsinə xidmət edən ciddi hadisədir. Yaxın keçmişdə iki ölkə arasında bəzi problemlərin yaranmasında etimadsızlığın böyük rolu olub. Amma təəssüf ki, bəzi qüvvələr bunu yenidən qabartmağa çalışırlar. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkianla münasibətləri yeni mərhələnin başladığından xəbər verir. Pezeşkianın Azərbaycana ilk səfərində verdiyi açıqlamaları və İrana qayıtdıqdan sonra etdiyi “günah bizdədir” etirafı göstərdi ki, əvvəlki problemlər bəzi qüvvələrin yaratmağa çalışdığı etimadsızlıqdan irəli gəlib. Bu səbəbdən iki ölkə arasında etimadın artırılmasına yönəlmiş addımların atılması olduqca vacib idi.

Azərbaycan üçün İranla münasibətlərdə Təbrizin xüsusi yeri və çəkisi var. Təbrizlilər üçün də Azərbaycan əlahiddə mənəvi dəyərə malikdir. Hər iki dövlət ortaq mənəvi dəyərlərə hörmət göstərərək, bu yöndə atılan addımlar münasibətlərimizin gələcəkdə daha da yaxşılaşacağından xəbər verir. Təcrübə göstərir ki, müəyyən gərginliyə baxmayaraq, iqtisadi və nəqliyyat sahələrində münasibətlər davam etdirilir. Bu mənada xalqlar arasında əlaqələrin inkişaf etdirilməsi və mənəvi dəyərlərə hörmətlə yanaşılması Azərbaycan–İran münasibətlərinin davamlı olaraq müsbət istiqamətdə inkişafına böyük töhfələr verəcək.

# Avropanın “müharibə xofu”na qarşı həmrəylik yürüşü

(əvvəli 1-ci səhifədə)

Ordusunu gücləndirmək istiqamətində ciddi addımlar atan ölkələrdən biri də Almaniyadır. Hökumət ordusunu Avropanın ən güclüsü etmək üçün onu yenidən silahlandırmaq qərarına gəlib. “BZ” nəşrinin yaydığı məlumat görə, Almaniya müdafiə xərclərinə görə NATO ölkələrini ötməyi planlaşdırır. Qeyd olunub ki, hökumət silah-sursatın alınması üçün 60-dan çox müqavilə bağlamağa hazırlaşır. İyulun sonunda “Reuters2 agentliyi özəl mənbələrinə istinadən yazmışdı ki, Almaniya hərbi büdcəsini dörd dəfədən çox artırmağa hazırlaşır və hazırda hərbi texnika üçün bir neçə milyard dollarlıq sifariş hazırlayır. Məqalədə qeyd olunur ki, Almaniya Kansleri Fridrix Merts müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artırılması məsələsində artıq deputatların dəstəyini alıb. Hərbi xərclərin 2026-cı ildə 83 milyard avroya çatacağı planlaşdırılır.



Son illər hərbi strategiyasını sürətlə dəyişən ölkələrdən biri də Polşadır. 1999-cu ildə NATO-ya qoşulanda onun belə bir məqsədi yox idi. Amma indi Varşava Avropanın ən güclü ordusuna sahib olmağı hədəfləyir. 2024-cü ildə müdafiə xərcləri ÜDM-in 4 faizinə çatdırıldı ki, bu da NATO-da ən yüksək göstəricidir. “Reuters” in məlumatına görə, Polşa 2025-ci ildə müdafiə xərclərini ÜDM-in 4,7 faizinə çatdıraraq NATO-da iqtisadi gücə nisbətdə müdafiəyə ən çox pul xərcləyən ölkə olub. Hökumət, həmçinin sursat istehsalını gücləndirmək üçün PGZ-yə (Polska Grupa Zbrojeniow-Polşanın dövlətə məxsus müdafiə sənayesi holdinqidir.) 2,4 milyard zlot (təxminən 659 milyon dollar) ayırıb.



Qeyd edək ki, hazırda Polşa ordusu 202 min aktiv personal və 350 min ehtiyat qüvvəyə sahibdir. 2035-ci ilə qədər aktiv hərbi qüvvəni 300 minə çatdırmaq planlaşdırılır. Bu, Avropada ən böyük ordusu deməkdir. Ölkənin tank parkı sürətlə modernləşdirilir. ABŞ-dan “Abrams”, Cənubi Koreyadan isə “K2 Black Panther” tankları alınır, yerli istehsal gücləndirilir. Piyada döyüş maşınlarında da sovet texnikası mərhələli şəkildə yeni nəsil “Borsuk”larla əvəzlənir. Həmçinin artilleriya sahəsində Polşa artıq dünyanın ilk onluğundadır. Ordunun arsenalında “Krab” haubitsaları, “K-9” və “HIMARS” sistemləri var. Hərbi donanması hələlik zəif olsa da, Polşa Britaniya ilə yeni freqatların sifarişi üzrə müqavilə imzalayıb. Hərbi Hava Qüvvələri 479 təyyarəyə malikdir ki burada əsasən “F-16” qırıcıları üstünllük təşkil edir. Ölkənin HHQ-si gələcəkdə “F-35” və “FA-50” təyyarələri ilə gücləndiriləcək. Bundan başqa, ABŞ-dan 96 ədəd “Apache” helikopteri və “Patriot” hava hücumundan müdafiə sistemləri alınıb.

***

Şimali Atlantika Müqaviləsi Təşkilatına üzv olan Norveç də müdafiə xərclərini artırır. “AP News” xəbər verir ki, Norveç, ən azı, Britaniya istehsalı olan 5 yeni sualtı qayıq əleyhinə hərbi gəmilər almağa razılaşıb. Dəyəri 10 milyard funt sterlinq (13,5 milyard dollar) olan bu müqavilə iki ölkənin NATO-nun şimal cinahında əməkdaşlığını daha da dərinləşdirəcək. Bildirilib ki, Britaniya Norveçə “Type 26” tipli freqatlar təhvil verəcək. Bununla da, Şimali Avropada birgə fəaliyyət göstərəcək 8 Britaniya və ən azı, 5 Norveç gəmisi birgə qüvvə yaradacaq. Bu gəmilər Birləşmiş Krallıqda yerləşən “BAE Systems” şirkətinin başçılıq etdiyi konsorsium tərəfindən istehsal olunur. Norveçin Baş naziri Yonas Qar Störe bildirib ki, NATO üzvü olan ölkəsi yeni freqatlara ehtiyac duyur, çünki onun ölkəsi “İkinci Dünya müharibəsindən bəri ən ciddi təhlükəsizlik vəziyyəti ilə üz-üzədir”. Onun sözlərinə görə, Norveç ABŞ, Almaniya və Fransa istehsallı gəmiləri də nəzərdən keçirib, amma tarixi bağlara görə seçim Britaniyanın üzərinə düşüb.

Ümumiyyətlə, ötən il Aİ üzvləri hərbi xərcləri rekord həddə çatdırıb, bu ilin sonuna kimi daha çox artımın olacağı proqnozlaşdırılır. “Defensenews.com” yazır ki, Avropa Müdafiə Agentliyinin (EDA) hesabatına görə, Aİ keçən il müdafiəyə 343 milyard avro (402 milyard dollar) xərcləyərək rekord qırıb. Bu məbləğin 2025-ci ildə 381 milyard avroya (446 milyard dollar) çatacağı gözlənilir. NATO-nun xərcləri Çinin hərbi büdcəsindən 1,5, Rusiyadan isə 3 dəfə yüksəkdir. Aİ yalnız ABŞ-dan geri qalır və ÜDM-in 1,9 faizini təşkil edir. Yüksək xərclər əsasən yeni avadanlıqların alışı və tədqiqat işləri ilə bağlıdır. Müdafiə investisiyaları ümumi xərclərin 31 faizini, yəni 106 milyard avro təşkil edib. 2024-cü ildə Portuqaliya və İrlandiya istisna olmaqla, bütün üzv ölkələr büdcələrini artırıb. Keçən il ÜDM-in 4 faizə yaxını ilə Polşa liderlik edib, ondan sonra hər biri ÜDM-in 3 faizindən çoxunu hərbi sahəyə xərcləyən Estoniya, Latviya və Litva gəlir. Aİ-nin Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas deyib: “Müdafiə vətəndaşlarımızın qorunması üçün əsasdır və Avropa bu sahədə güclənməlidir”.

Beləliklə, Avropada müdafiə xərclərinin sürətlə artması, orduların modernləşdirilməsi və NATO çərçivəsində əməkdaşlığın gücləndirilməsi göstərir ki, qitə ölkələri təhlükəsizlik və müdafiəni prioritet sahə kimi qiymətləndirirlər. Almaniya, Polşa, Norveç və digər ölkələrin ordularını gücləndirmək istiqamətində atdıqları addımlar həm milli maraqların qorunmasına, həm də NATO-nun ümumi müdafiə potensialının artırılmasına töhfə verir. Silahlanma, tədqiqat-inkişaf layihələri və birgə hərbi proqramlar vasitəsilə Aİ üzvləri təhlükəsizlik risklərinə qarşı hazırlığını artırır.

***Musa BAĞIRLI***
***XQ***

# Paşinyanın linqvistik “qətiyyət”i

## *Hayların baş naziri üçün kabusa çevrilmiş “dəhliz” tabusu*

**Ermənistanın baş naziri Nikol Paşinyan son günlər siyasət meydanında daha çox psixoloji dəstəyə ehtiyacı olan fiqur təsiri bağışlayır. “Hraparak” nəşrinin məlumatına görə, Paşinyan ABŞ-ın Donald Trampa şikayət məktubu göndərməyi planlaşdırır. Məktubun səbəbi isə belə göstərilir: guya Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqton razılaşmasını pozur. Paşinyanın narazılığı iki əsas məqamdan qaynaqlanır: bir tərəfdən Azərbaycan ordusunu gücləndirməyə davam edir, digər tərəfdən isə “Zəngəzur dəhlizi” ifadəsini dilindən salmır. Nəşr yazır ki, Nikol bu qənaətə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsindən sonra gəlib. Baş nazirin müsahibədə səslənən Zəngəzur dəhlizi (TRIPP) ifadəsi erməni baş nazirin xətrinə dəyib.**

Bəli, “Hraparak” Ermənistanda müxalifyönlü nəşr olaraq tanınır. Müxtəlif vaxtlarda Nikol Paşinyanla bağlı tənqidi yazıların dərci birbaşa nəşrin adı ilə bağlıdır. Bir neçə ay öncə Paşinyanla kilsə arasındakı münaqişə zamanı “Hraparak” onu dini və ailə dəyərlərinə hörmətsizlikdə suçlamış, Paşinyan isə bu qəzeti məhkəməyə verəcəyini bəyan etmişdi. Bu baxımdan qəzetin Paşinyan iqtidarı barədə yazdıqlarına tam obyektiv yanaşmaq, təbii ki, çətindir. Lakin məsələ tək “Hraparak”la bitmir. Sentyabrın 1-də Çində “ŞƏT plyus” formatında keçirilən görüşdə Prezident İlham Əliyev Zəngəzur dəhlizinin (TRIPP) Avrasiyanın nəqliyyat şəbəkəsi üçün əhəmiyyətindən danışıb. Bildirib ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi (TRIPP) həm Orta Dəhlizin, həm də Şimal–Cənub dəhlizinin vacib seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək. Lakin, Prezident İlham Əliyevin Zəngəzur dəhlizi (TRIPP) ifadəsi Ermənistanın baş nazirini narahat edib. Paşinyan açıqlamasında vurğulayıb ki, Azərbaycan Prezidentinin seçdiyi ritorika Vaşinqtonda əldə olunan razılaşmaların ruhuna uyğun gəlmir. O, həmin razılaşmanı “Trampın Sülh və Rifah Marşrutu” adlandıraraq, məhz bu adın dialoq mühitinə müsbət təsir göstərə biləcəyini bildirib.

“Dəhliz” sözü Paşinyan üçün artıq tabu halını alıb. İddialara görə, baş nazir Trampdan tələb edəcək ki, ən azından Ermənistanda seçkilər başa çatana qədər İlham Əliyev bu ifadəni işlətməsin. Bu addım Paşinyan üçün həm siyasi, həm də psixoloji təhlükəsizlik təmin etməyə hesablanıb. Lakin beynəlxalq siyasətdə belə emosional qadağalar nadir hallarda effektiv olur. Vaşinqton görüşündə Donald Trampın Paşinyanın yanında ən azı üç dəfə “dəhliz” sözünü təkrarlaması bunu açıq şəkildə göstərdi. Bu, həm Paşinyanın diplomatik zəifliyini üzə çıxardı, həm də amerikalı liderin mesajı oldu: “Sizin tabu sözünüz bizim gündəlik leksikonumuzun sadə bir hissəsidir”. Paşinyan üçün bu, diplomatiya meydanında kiçik, amma simvolik məğlubiyyət idi. İrəvanın illərdir aparmağa çalışdığı “dəhliz yox, yol var” manipulyasiyası Trampın bir neçə cümləsi ilə sarsıldı və bu, Paşinyanın beynəlxalq arenadakı mövqeyini zəiflədən məqam kimi yadda qaldı.



Paşinyanın “Azərbaycan ordusunu gücləndirir” iddiası da diqqət çəkir. Bu arqument beynəlxalq münasibətlərdə ciddi qəbul edilə bilməz, çünki hər bir dövlət təhlükəsizliyi üçün ordusunu inkişaf etdirir. Azərbaycanın müdafiə gücünü artırması Ermənistanda niyə təşviş doğurur?

Paşinyanın Vaşinqtonda sərgilədiyi emosional davranışın bir başqa səbəbi də daxili auditoriyadır. Ermənistan cəmiyyətində “dəhliz” məsələsi həssas və seçkiqabağı siyasi alətdir. Paşinyan seçkilərə qədər bu kəlməni arxa plana atmaqla öz mövqeyini qorumağa çalışır, “piyada” mövqeyində “vəzir” gedişi etməyi planlaşdırır. Lakin paradoks ondadır ki, qadağa qoymaq əks təsir yaradır. Trampın, sadəcə, üç dəfə “dəhliz” sözünü deməsi kifayət etdi ki, Paşinyanın bütün arqumentləri havada qalsın. İrəvan rəhbərliyi üçün problem “dəhliz” kəlməsinin işlədilməsi deyil, həmin dəhlizin artıq real siyasi və iqtisadi gündəliyin bir hissəsinə çevrilməsidir. Paşinyan hələ də bu reallıqla barışmaq əvəzinə, “linqvistik qətiyyət” göstərərək, “dəhlizi” yola çevirməyə çalışır.

Vaşinqton səfərində Paşinyanın davranışı, soyuqqanlı strategiya yerinə emosional reaksiyalar sərgiləməsi onun hay cəmiyyətindəki narahatlıqlarının göstərcisi idi. “Dəhliz” artıq sadəcə coğrafi termin deyil, həm də siyasi, iqtisadi və simvolik bir reallıqdır. Paşinyan bu reallığı hələ də həzm edə bilmir.

### *Ekspert rəyi*



**Sultan ZAİDOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

8 avqustda Vaşinqtonda imzalanan Birgə Bəyannamədə elə bir bənd yoxdur ki, dəhlizin yalnız müəyyən ad altında tanınması tələb edilsin. Rəsmi sənəddə ona TRIPP – “Trump Route for International Peace and Prosperity” adı verilsə də, bu, Azərbaycanın həmin marşrutu “Zəngəzur dəhlizi” adlandırmaq hüququnu əlindən almır. Çünki bu yol coğrafi olaraq məhz Qərbi Zəngəzurdan keçir. Tarixi faktlar göstərir ki, bu ərazilər qədimdən Azərbaycanın torpaqlarıdır və adı da məhz “Zəngəzur” olub.

Nikol Paşinyana yaxın çevrələrin irəli sürdüyü digər ittiham isə Azərbaycanın, guya, ordusunu gücləndirməsi ilə bağlıdır. Bu da tamamilə əsassız iddiadır. Hər bir ölkənin, suveren dövlətin hüququdur ki, öz təhlükəsizliyini möhkəmləndirsin. Azərbaycanın bu gün ordusuna sərmayə qoyması Ermənistana hücum niyyəti demək deyil. Əksinə, Bakı hər zaman beynəlxalq hüquqa əsaslanıb və yalnız öz ərazilərini işğaldan azad edib. 2020-ci ildə Azərbaycan işğalçı deyil, torpağını işğaldan azad edən tərəf olduğunu sübuta yetirdi. Bunu Prezident İlham Əliyev müxtəlif platformalarda vurğulayıb. Ordunun gücləndirilməsi qlobal tendensiyadır: Avropanın özü “Rearm Europe” proqramı çərçivəsində qarşıdakı illərdə 800 milyard avroluq hərbi büdcə ayırmağı planlaşdırır. Bu halda Azərbaycanın ordusunu güclənləndirməsi niyə ittiham obyektinə çevrilməlidir?

Vaşinqton Bəyannaməsində açıq şəkildə vurğulanır ki, Azərbaycanla Naxçıvan arasında maneəsiz keçid təmin edilməlidir. Bu dəhliz təkcə iki bölgəni birləşdirən yol deyil, həm də böyük geosiyasi əhəmiyyət daşıyır. O, Orta Dəhlizin bir hissəsi kimi Avropa ilə Şərq arasında yüklərin daşınmasında mühüm rol oynayacaq. Buradan yalnız Azərbaycan yox, Ermənistan da fayda götürəcək. Uzun illər işğalçı siyasətinə görə regional layihələrdən kənarda qalan Ermənistan, əgər real inteqrasiya istəyirsə, ilk addımı Qafqazdan atmalıdır. Çünki Qafqazda yerləşən, amma regional layihələrindən kənarda qalan yeganə ölkə Ermənistandır.

Münaqişə artıq arxada qalıb. Qarşıda duran əsas məsələ davamlı sülhün təmin olunmasıdır. Bunun üçün Ermənistan konstitusiyasına zəruri dəyişikliklər etməli, işğal ritorikasından birdəfəlik əl çəkməlidir.

Bununla yanaşı, Vaşinqton səfəri Paşinyanın seçkiqabağı strategiyasının paradoksal mahiyyətini də üzə çıxarır. O, “dəhliz” sözünü arxa plana atmaqla özünü qorumağa çalışır, amma bu addımın əks effekti yaranır: xarici liderlərin həmin kəlməni təkrar-təkrar işlətdiyi anlarda Paşinyanın bütün arqumentləri havadan asılı qalır, daxili auditoriya isə onun zəif mövqeyini görür. İrəvan hakimiyyəti üçün prioritet dəhlizin mövcudluğu və siyasi gündəliyin bir parçası olmasıdır, Paşinyan isə bu reallıqla üzləşməkdən hələ də yayınır.

Beləliklə, Paşinyanın davranışı yalnız şəxsi diplomatik təcrübəsizlikdən qaynaqlanmır, həm də Ermənistanın seçkiqabağı psixologiyası və cəmiyyətin həssas siyasi mövzulara reaksiyasının əksidir. “Dəhliz” artıq İrəvan üçün bir tabu deyil, reallıqdır. Paşinyanın isə bu reallıqla barışması hələ ki, mümkün görünmür. Bu isə onun beynəlxalq arenadakı mövqeyini zəiflədir və diplomatik manevr imkanlarını məhdudlaşdırır.

***Tacir SADIQOV***
***XQ***

# Üzr günahı üstələyəndə...

(əvvəli 1-ci səhifədə)

Hər şey 2024-cü il dekabrın 25-də Rusiya HHM qüvvələrinin Bakıdan Qroznıya uçan AZAL-ın sərnişin təyyarəsini vurması ilə başladı. 38 nəfərin həlak olduğu faciə barədə Azərbaycan fakt və sübutları ortaya qoydu, Rusiya tərəfini fəlakətin əsl səbəblərini gizlətməkdə və qəsdən dezinformasiya yaymaqda ittiham etdi. Kreml susdu. 2025-ci ilin fevralında Azərbaycan mediasına kiberhücumlar baş verdi. Bakı haqlı olaraq bu hücumlarda hökumət strukturları ilə sıx əlaqədə olan rus haker qruplarından şübhələndi. Kreml reaksiya vermədi. 2025-ci ilin iyununda Yekaterinburqda səs-küylü insident baş verdi: Azərbaycan diasporuna qarşı genişmiqyaslı polis reydləri zamanı iki azərbaycanlı vəhşicəsinə döyülərək öldürüldü. Azərbaycan XİN Rusiya FTX-nin Yekaterinburqda azərbaycanlılara qarşı zorakılıq hərəkətləri ilə bağlı kəskin bəyanat yaydı və Rusiyanın ölkəmizdəki müvəqqəti işlər vəkili XİN-ə çağırıldı və ona etiraz notası təqdim edildi. Kreml bunu da görməzdən gəldi. Rusiya ordusu Ukraynada Azərbaycana məxsus obyektləri – SOCAR-ın kompressor stansiyasını, qaz kəmərini vurdu. Kreml bunları eşitmədi. Azərbaycanlı alimlərin, mədəniyyət xadimlərinin, iş adamlarının, hətta deputatın hava limanında yerli-yersiz incidilməsi, süründürməçiliyə məruz qalması, səbəb göstərilmədən deportasiya edilməsi adi hala çevrilib. Biz hələ Azərbaycanın Rusiyaya ixrac etdiyi məhsullarda, guya, "zərərli maddələrin" tapılmasını, təxribat xarakterli digər addımlarını demirik.

Məhz "susqun", "görməyən", "eşitməyən" Kremldən təlimat alan FTX, İstintaq Komitəsi və XİN-in həyata keçirdiyi anti-Azərbaycan kampaniyası artıq etnik zəmində davam edir. Bu kampaniyaya Rusiya mətbuatında Azərbaycanın düşmən obrazı yaratmaq üçün genişmiqyaslı kampaniya, repressiya və deportasiyalar, bu ölkədə yaşayan azərbaycanlıların bizneslərinin ələ keçirilməsi daxildir. Heyrət doğuran odur ki, bunların heç birinin sonu görünmür.

***

Rusiya XİN Azərbaycan XİN-in AZAL-ın sərnişin təyyarəsi fəlakəti ilə bağlı sığorta ödənişləri barədə iki gün əvvəlki şərhinə bəyanatla cavab verib. Bəyanatda oxuyuruq: "2024-cü il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı sığorta ödənişləri üzrə Rusiya Xarici İşlər Nazirliyi bir gün əvvəl ətraflı izahat verib. Təqdim olunan məlumatlar və rəqəmlər heç bir etiraz yaratmadı. Bunlar faktdır".

Rusiya xarici diplomatiya idarəsinin "fakt" adlandırdığı məsələ, AZAL-la bağlı "təzminat" açıqlaması, əslində, manipulyativ xarakter daşıyır və ictimai rəyi çaşdırmağa yönəlib. Burada söhbət Azərbaycan tərəfinin tələb etdiyi dövlət təzminatından getmir. Rusiya XİN-in göstərdiyi məbləğlər qəzaya uğramış təyyarənin dəyəri və faciədə həlak olmuş və yaralanmış sərnişinlərin fərdi sığorta müqavilələri üzrə ödənişlərdir. Bu hal beynəlxalq aviasiya təcrübəsində normal qəbul olunmuş hüquqi mexanizmdir. Yəni, bu, hüquqi baxımdan Rusiya dövlətinin qəzada məsuliyyətini qəbul etməsi anlamına gəlmir.

Rusiya XİN-in bəyanatında deyilir: "Bu ilin iyul ayında Azərbaycanda 13 Rusiya vətəndaşının həbsinin, guya, Rusiya–Azərbaycan münasibətlərinin pisləşməsinə səbəb olduğunu bildirən və münasibətlərin yaxşılaşdırılması şərti kimi onların azadlığa buraxılmasını irəli sürən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibinin mövqeyi də yanlış verilib".

Mariya Zaxarovanın brifinqdə dilindən səslənən "Azərbaycanda həbsdə olan 13 Rusiya vətəndaşının azadlığa buraxılması Moskva ilə Bakı arasında münasibətlərin normallaşması istiqamətində mühüm addım ola bilər" sözləri təkcə yerli mediada deyil, qonşu ölkələrin yazılı və elektron KİV-də də yayımlanıb. Burada rus dilindən tərcümə xətasından söhbət gedə bilməz. Məsələ təkcə diplomatik ritorikanın düzgün seçilib-seçilməməsi



ilə məhdudlaşmır. Rusiya XİN, eyni zamanda, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının koordinasiyalı fəaliyyəti nəticəsində anti-Azərbaycan siyasəti kompleks xarakter alıb. Bu isə onu göstərir ki, Kreml Bakı ilə münasibətləri yumşaltmaq üçün bir tərəfdən simvolik jestlər etmək istəsə də, digər tərəfdən təzyiq rıçaqlarını əlindən buraxmaq istəmir. Beləliklə, Rusiya XİN-in bəyanatındakı həm "təzminat" iddiasının, həm də Zaxarovanın açıqlamasının arxasında Kremlin klassik diplomatik təzyiq taktikasını görmək çətin deyil.

Bu isə Rusiya XİN-in bəyanatının son abzasında yer alan iddiadır: "Onu da diqqətə çatdırırıq ki, Rusiya və Azərbaycan Respublikasının iştirakı ilə Qazaxıstan Respublikası tərəfindən həyata keçirilən sərnişin təyyarəsinin qəzaya uğrama şəraiti ilə bağlı beynəlxalq araşdırmaların nəticəsi HƏLƏ AÇIQLANMAYIB. (bəyanatda bu iki söz böyük hərflərlə yazılıb- red.). Ölkəmizin faciənin səbəblərini aydınlaşdırmağa çalışdığına və baş verənlərin tam mənzərəsini canlandırmaq üçün əlindən gələni əsirgəməyəcəyinə heç kəsin şübhəsi olmasın".

"Baş verənlərin tam mənzərəsini canlandırmaq üçün əlindən gələni əsirgəməyən" ölkə olaraq Rusiyanın dünyanın gözü qarşısında baş verən təyyarə faciəsində günahını boynundan atmağa çalışması, beynəlxalq araşdırmanın nəticəsinin fərqli olacağına eyham vurması onun qonşularına yuxarıdan aşağı baxmasının daha bir nümunəsidir.

***

Yekaterinburqda törədilən qətl hadisəsindən bugünədək Rusiyada soydaşlarımıza, ümumən Azərbaycana qarşı dözülməz hərəkətlərə yol verilir. Rusiya polisi, xüsusi təyinatlıları gündə bir şəhərdə, ticarət şəbəkəsində, hətta vətəndaşın yaşadığı mənzilin içində "miqrant ovuna" çıxır. Bu "reydlərdə" soydaşlarımız döyülür, söyülür, alçaldılır, təhqirlərə məruz qalır. Onlar qurama cinayət işləri ilə narkotik alveri, terrorçuluğa dəstək kimi ağır ittihamlarla üzləşirlər. Belə hallar Rusiyanın, demək olar ki, bütün bölgələrində müşahidə olunur.

XXI əsrdə "Rusiya ruslar üçündür" kimi radikal-sağçı, şovinist şüarlarla siyasətə atılan populist siyasətçilər islamofob mövqedən çıxışlar edirlər. Onların iddiasına görə, bu ölkədə iqtisadi vəziyyətin pisləşməsinə miqrantlar səbəb olurlar. Guya, miqrantlar bütün iş yerlərini tutaraq rusları kənarda qalmasına yol açırlar. Reallığın tamamilə başqa rəngdə olduğunu rusların özləri də xəbərdardırlar. Onlar çox yaxşı bilirlər ki, miqrantlar əsasən rusların işləməkdən imtina etdiyi və ən ağır və az ödənişli sahələrdə çalışırlar. İndi miqrasiya qanununa edilən dəyişikliklər miqrantları hətta taksi sürmək hüququndan belə məhrum edir.

Azərbaycan–Rusiya münasibətlərinə qayıdaraq bir daha nəzərə çatdıraq ki, hüquqi baxımdan bu əlaqələr strateji müttəfiqlik haqqında müqavilə ilə təsbitlənib. Fəqət, son ayların hadisələri fonunda, xüsusilə məlum təyyarə faciəsindən sonra Rusiyanın davranışı, bu ölkədə yaşayan soydaşlarımıza qarşı təzyiqləri, muzdlu təbliğatçılar tərəfindən tirajlanan anti-Azərbaycan təbliğatı nəinki strateji müttəfiqlik, heç qonşuluq münasibətlərinə də yaraşdırmaq olmaz. Bütün bunlar olduqca xoşagəlməz hadisələrdir və sonunun nə ilə bitəcəyi daha çox Rusiyadan asılıdır. Məhz Rusiya ilkin addımları atmalı, təyyarə məsələsini beynəlxalq hüquq çərçivəsində həll etməli, soydaşlarımıza qarşı təzyiqləri, kütləvi informasiya vasitələrində düşmənçilik təbliğatını dayandırmalı, sağlam fikir qalib gəlməli, münasibətlər əvvəlki axarına düşməlidir.

Nə yazıqlar ki, Kreml hələ də keçmiş SSRİ respublikalarını müstəqil dövlətlər kimi qəbul etmək istəmir, onlara yuxarıdan aşağı baxır, hər cür təzyiqlər göstərir. Bəli, Moskva bu müstəqil ölkələrə hələ də özünün koloniyaları kimi baxır. Kremlin əl çəkə bilmədiyi bu yanlış siyasət bölgədə sabitliyə deyil, qarşılıqlı etimada kölgə salmağa xidmət edir. Əgər Şimal qonşumuz Azərbaycanla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini davam etdirməyə niyyətlidirsə, öncə müttəfiqlərinə qarşı saymaz və ikibaşlı yanaşmadan əl çəkməlidir.

Azərbaycan postsovet ölkələri arasında sabit siyasət aparan, qonşularının geosiyasi, geoiqtisadi milli maraqlarına hər zaman hörmətlə yanaşan ölkədir. Amma bu zaman qonşularından da adekvat münasibət gözləmək haqqı var.

Yazımıza Kremlin hazırkı siyasətinə və apardığı müharibəyə etiraz əlaməti olaraq ölkəni tərk edən yazıçı Boris Akuninin müsahibəsində dediyi sözlərlə nöqtə qoyuruq: "Bu gün Rusiya cəmiyyəti məsuliyyətli davranmalı, gələcəyə baxmalı və onu hansı fəlakətlərin gözlədiyini dərk etməlidir".

Bəli, Rusiya bu gün fəlakətə çox yaxın məsafədədir. Kremlin başbilənləri yaxınlaşan fəlakəti önləmək üçün "problemi ondan daha böyük problem yaratmaq" cəhdlərinə son qoymalıdır.

**_İmran BƏDİRXANLI_**
**_XQ_**

# Təyyarə olayı və Rusiya XİN-in "sığorta quşu"

## *İndi Moskvanın "göz yaşları" quruyub...*

**Rusiya Xarici İşlər Nazirliyi "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin qəzaya uğraması ilə əlaqədar sığorta ödənişlərinin həyata keçirilməsi barədə 4 sentyabr tarixli məlumat yaymaqdansa, ölkənin dəymiş zərəri ödəmək qabiliyyətinin olmadığını bildirsəydi, ikitərəfli münasibətlər baxımından daha səmimi mənzərə yaranardı. Məsələn, nazirlik açıqlaya bilərdi ki, Ukrayna ilə müharibə, sanksiyalar Rusiyanı çökdürüb və buna görə Azərbaycandan təyyarə olayı ilə bağlı təzminatı bir qədər gözləməyi xahiş edirik. Razıyıq, "bir qədər"ə aydınlıq gətirməmək də olardı. Başa düşürük ki, Ukrayna ilə müharibənin bitməsi indinin və ya sabahın işi deyil.**

Əlqərəz, indi Azərbaycan Xarici İşlər Nazirliyinin Rusiya XİN-nin açıqlamasına cavabı ikincini rüsvay etməkdir. Əlbəttə, qarşı tərəfdəkilər başqa cür düşünə bilərlər. Amma sual yaranır: Onlar anlamırlar ki, AZAL-a və sərnişinlərə Rusiyada qeydiyyatda olan sığorta şirkəti tərəfindən sığorta ödənişlərinin həyata keçirilməsi və təyyarənin vurulması ilə bağlı ölkəmizin Rusiya Hökumətindən kompensasiya tələbi tamamilə fərqli mövzulardır? Hər halda, bilməmələri şübhəlidir.

Bəli, Azərbaycan XİN-in açıqlamasından gəlinən nəticə budur ki, zərərçəkənlərə sığorta ödənişlərinin həyata keçirilməsinin Rusiya dövlətinə heç bir dəxli yoxdur. Təyyarə kənar amillərin təsiri olmadan qəzaya uğrasaydı da, Rusiya XİN-in açıqladığı ödənişlər yerinə yetiriləcəkdi. Digər tərəfdən, əgər Rusiya dünya ilə düşmən kəsilməsəydi, həmin ödənişi ölkə ərazisindəki şirkət həyata keçirməyəcək, Kremlin baş diplomatiya idarəsinin də dəxlisiz məlumat yaymasına ehtiyac qalmayacaqdı...

AZAL-ın təyyarəsi göydə quşlarla toqquşmayıb, nə də faciə göyərtədə qaz balonu partlayışı nəticəsində yaşanıb. Yəni, sığorta ödənişləri qəzanın hansı səbəbdən baş verməsindən asılı olmayaraq həyata keçirilən prosedurdur. Deməli, Rusiya XİN-in məsələyə dair məlumat yayması anlaşılmazdır. Axı qurum sığorta şirkəti deyil.

İndiki durumda söhbət təyyarənin kənar amillərin təsiri ilə qəzaya uğramasından gedir. Başqa sözlə desək, Rusiya səmasında raket hücumuna məruz qalması ilə yerə məcburi eniş etməsindən. O eniş ki, ona əvvəlcə Rusiya tərəfi icazə verməmiş, təyyarəmizin pilotu məcburiyyət qarşısında hava gəmisini Qazaxıstana yönləndirməli olmuş, faciəli qəza enişi ölkənin liman şəhəri olan Aktauda gerçəkləşmişdi.

Azərbaycan Rusiyaya qarşı konpensasiya tələbini ona görə irəli sürür ki, AZAL-ın təyyarəsi ikincinin hava məkanında hərəkət edərkən yerdən açılan raket atəşi nəticəsində idarəetməni itirib. Yəni, sığorta ödənişləri hər bir halda ödənilməlidir, bu, öz yerində. Başlıca məqam Rusiyanın təzminatı ödəməsi, dəymiş zərəri tam həcmdə qarşılamasıdır. Təzminat ödəmək üçün isə ilk növbədə məsuliyyət etiraf edilməlidir. Məsələn, bildirilməlidir ki, Qroznu şəhərində raket hücumundan müdafiəni təşkil edən hansısa əbləh komandir yuxusunda Ukrayna qoşunlarının hücuma keçdiyini görüb, ayılanda dizləri əsib, AZAL-ın təyyarəsini PUA-ya oxşadıb və onu vurmaq əmri verib. Başqa nə isə tapaqmı?..

Təəssüf ki, Rusiya müvafiq izahat vermir. Etmirsə, ölkənin Xarici İşlər Nazirliyinin sığorta ödənişləri ilə bağlı məlumat yaymaq nəyinə lazımdır? Görəsən, hansı məntiq nazirlikdəkiləri belə bir addım atmağa məcbur edib? Gülməlidir. Əslində isə durum gülməli yox, ağlamalıdır. Ona görə ağlamalıdır ki, belə demək mümkünsə, ödəniş məlumatı ilə paralel olaraq, Rusiya XİN-in mətbuat katibi cari ilin iyul ayında Azərbaycanda 13 Rusiya vətəndaşının həbs olunmasını Bakı-Moskva münasibətlərinin pisləşməsi səbəbi kimi təqdim edir. Bu azmış kimi, onların azadlığa buraxılmalarını münasibətlərin yaxşılaşması üçün şərt kimi irəli sürür. Təxminən belə: ödənişi də elədik, ta bizimkiləri sərbəst buraxın. Buna da güləkmi, ya nə edək, bilmirik. Ancaq onu bilirik ki, Azərbaycan XİN-in məsələyə izahı tam dəqiq və yerindədir: "Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur".

Rusiya rəsmilərinin davranışlarından isə müəyyən qədər söz açdıq. Əlavə edək ki, həmin vaxt təyyarəmizin quşlarla toqquşduğunu yuxusunda görənlər sırasında həmin rəsmilər də olmuşdu. Hətta, onların bəzilərinin sözlərindən belə nəticə hasil olmuşdu ki, Azərbaycan vaxtilə Rusiyaya məxsus hərbi helikopteri vurmuşdu, ona görə indi Rusiyanın hərəkətinə göz yummalıdır. Yəqin, xatırladınız ki, bu sublimінal mesajın müəllifi Rusiya XİN rəhbəri Sergey Lavrov idi. Lavrovun dediklərinə Azərbaycan ictimaiyyətinin sərt reaksiya verdiyi də hər kəsə yaxşı bəllidir.



Azərbaycan dövlətinin Rusiya tərəfindən təyyarə olayı ilə helikopterin vurulmasının eyni müstəviyə gətirmək cəhdlərinə hansı münasibəti göstərməsinə gəldikdə, bunun detalları məlumdur və Prezident İlham Əliyev məsələnin üzərinə ötən ay Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bir daha gəldi. "Sizə yenə də İkinci Qarabağ müharibəsindən bir misal çəkə bilərəm. Müharibənin sonuncu günündə - noyabr ayının 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular. Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başlatdıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular", - deyən ölkəmizin başçısı əlavə etdi ki, Rusiya tərəfindən təyyarəmizin vurulması ilə bağlı belə addımların atıldığını görmədik.

Prezident İlham Əliyev müsahibəsində, həmçinin bildirdi ki, 2020-ci il noyabrın 9-da Rusiya hərbi helikopterinin Azərbaycan tərəfindən vurulmasına görə ölkəmizin nümayiş etdiyi davranış eyni münasibəti qarşı tərəfdən də gözləmək üçün əsas verir, çünki iki ölkə bir-birini dost adlandırır. Lakin: "Bu vaxtadək onlar nəyin baş verdiyini demirlər. Beləliklə, bu, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdə ciddi məsələdir, lakin biz əlaqələri gərginləşdirmək istəmirdik. Bəli, bu, xalqımızı məyus edib, qəzəbləndirib və qəmginliyə salıb. Biz gözləyirik, gec və ya tez istintaq başa çatacaq".

Rusiya tərəfi istintaqın nə zaman başa çatacağını bildirmir, ümumən, bununla bağlı heç bir xəbər vermir. Görünür, ölkədə kimlərsə onsuz da ödənilməli olan sığorta ödənişi ilə məsələni nəinki bağlamağa, eyni zamanda, başqa problemi aradan qaldırmağa ümid bəsləyib. Hər halda, "Rusiya XİN Azərbaycanda saxlanılanlar Rusiya vətəndaşları" mövzusunu təsadüfən gündəmə gətirmir. Bir daha deyək ki, mövzunun təyyarə olayı ilə bağlılıq payı başqa cürdür. Yəni, mənasız bağlılığı yaradan da qarşı tərəfdir.

Məsələ ondadır ki, təyyarə olayına görə müvafiq məsuliyyəti daşımaq istəməyən Rusiyada kimlərsə xaricdə yaşayan azərbaycanlılara təzyiq yolu ilə ölkəmizin geri addım atmasına nail olmağa cəhd göstərdi. Nəticədə ortaya daha ağlagəlməz mənzərə çıxdı. Prezident İlham Əliyev sözügedən müsahibəsində həmin mənzərəni də təsvir etdi. "Lakin sonra Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirilmişdir və işgəncələrə məruz qalmışlar. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta onlar deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törədiblərsə, onlar insandırlar, onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir? Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi" – deyən ölkəmizin lideri onu da vurğuladı ki, münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür: "Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".

Sonda bunu da deyək: Yaxşı olar ki, Rusiya tərəfi Azərbaycana qarşı hörmətsizliyi dayandırsın, təyyarə olayı ilə bağlı əsl mahiyyətə meydan oxumasın, hansısa interpreativ metodlara baş vurmasın, əvvəldə vurğuladığımız kimi, səmimi davransın. Nəzərə alsın ki, mənasız açıqlamalar da səmimiyyət mühitinə zərbə vurur, etimadsızlıq yaradır. Nəticədə münasibətlərin qaydasına qoyulmasında əlavə çətinliklər formalaşır. Əlbəttə ki, Moskvaya Bakı ilə təmasları normallaşdırmaq lazımdırsa.

**_Ə.RÜSTƏMOV_**
**_XQ_**

# Naxçıvandan başlanan milli ordu quruculuğu

**Tarix sübut edib ki, hər bir dövlətin müstəqilliyi onun sarsılmaz və güclü təməllər üzərində qurulmuş ordusundan asılıdır. Sivil dünya nə qədər inkişaf etsə də, güc amili hər zaman əsas rol oynayıb. Bu gerçəyə xalqımız zaman-zaman şahidlik edib.**



Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğraması, əsrin sonlarında torpaqlarımın işğal olunması güclü ordumuzun olmamağımızdan qaynaqlanıb. Buna görə də tarix boyu böyük liderlər, fatehlər ordu quruculuğuna böyük önəm verib, bunsuz dövlətçiliyin mövcud olmayacağına şübhə etməyiblər. 1991-ci il sentybrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə cəmi 4 gün əvvəl sədr seçilmiş ümummilli lider Heydər Əliyevin blokada şəraitində çətin fəaliyyətə ilk olaraq ordu quruculuğundan başlaması məhz bu zərurətdən yaranmışdı.

34 il əvvəl bu gün Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş tarixi qərarla muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi üçün Dövlət Müdafiə Komitəsinin yaradılması müstəqilliyin astanasında Azərbaycanda Milli Ordu quruculuğu prosesinin əsasını qoydu. Həmin dövrdə muxtar respublika faktiki olaraq Ermənistanın irimiqyaslı təcavüzü ilə üzüzə qalmışdı. Bakıda iflic vəziyyətə düşmüş mərkəzi hakimiyyətin Naxçıvana ögey münasibəti vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Muxtar respublikanın sərhədyanı yaşayış məntəqələrinə, xüsusilə Sədərəyə aramsız hücumların qarşısı yalnız əhalinin birliyi və Müdafiə Komitəsinin məhdud imkanları sayəsində alınırdı.

Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi Urfullah Qurbanovun "Xüsusi tapşırıq" adlı kitabında qeyd olunur ki, həmin dövrdə vətənpərvər insanların sayəsində təkcə Naxçıvandan deyil, ölkəmizin digər bölgələrindən, xüsusilə, Gəncəbasar zonasından bu komitəyə böyük yardımlar olunurdu. Həmin dövrdə Gəncədən yüzlərlə ton silah-sursat Naxçıvana göndərilmiş, hətta bu qədim diyarda Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti də təşkil edilmişdi.

Sonralar Ali Məclisin Sədri Heydər Əliyev cəmiyyət üzvlərinə belə bir teleqram da ünvanlamışdı: "Möhtərəm bacılar və qardaşlar! Gəncə şəhərində Naxçıvana Yardım Xeyriyyə Cəmiyyətinin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhər sakinlərinə naxçıvanlıların salamını və dərin məhəbbətini bildiririk. Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları – Gəncə və Naxçıvan arasında qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayırıq. Bütün gəncəlilərə cansağlığı, səadət diləyirik!"

Yeri gəlmişkən, Gəncənin mərd, vətənpərvər oğullarından ibarət "Gəncə taboru"nun yaradılması təklifini də Naxçıvana rəhbərliyi öz üzərinə götürmək məcburiyyətində qalmış Heydər Əliyev dərhal dəstəkləmişdi. Həmin taboru Naxçıvan Dövlət Müdafiə Komitəsinin sədri Elman Abbasov rəsmi qeydiyyatdan keçirdikdən sonra Gəncə dəstəsi Sədərək döyüşlərində iştirak etmişdi. Döyüşlərdən sonra Heydər Əliyev Sədərəkdə böyük hünər göstərmiş taborun əsgərlərini mükafatlandırmış, komandir Elşən Əliyevə isə "Qaz-24" avtomobili hədiyyə etmişdi.





Ümumiyyətlə, Naxçıvan Dövlət Müdafiə Komitəsi həmin dövrdə muxtar respublikada mövcud olan keçmiş SSRİ silahlı qüvvələrinin şəxsi heyətinin yola salınmasında, hərbi hissələrdən silah-sursatların təhvil alınmasında, bir sözlə muxtar respublikanın təhlükəsizliyinin təmin olunmasında böyük rol oynamışdı. 15 sentyabr 1992-ci ildə isə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradılmış və 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirilmişdi. 21 may 1995-ci ildə həmin briqada motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə Ordu Korpusuna, 18 dekabr 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Orduya çevrilmişdi.

Beləliklə, müstəqilliyimizin ilk günlərindən muxtar respublika əhalisinin ümummilli lider Heydər Əliyevin ətrafında sıx birləşməsi və Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Naxçıvan düşmən hücumlarından qorunmuşdu. Xalqın təkidli tələbi ilə dünya miqyaslı siyasətçi dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin böhranlı, fəlakətli günlərində Azərbaycanda hakimiyyətə qayıdışından sonra isə bütün ölkədə ictimai-siyasi sabitlik təmin edilmiş, ordu quruculuğunda genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanılmışdı.

22 ildir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ümummilli liderin möhkəm əsaslar üzərində yaratdığı ordu quruculuğunu uğurla davam etdirir. Ötən dövrdə ölkəmizdə bu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasını da əsaslı surətdə əhatə etmişdir. Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin görülməsi daim dövlət başçısının diqqətindədir.

Ali Baş Komandan qədim diyarda Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən demişdir: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Hələ Vətən müharibəsindən əvvəl – 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi və hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı Azərbaycan əsgərinin rəşadət əzmini bütün dünyaya nümayiş etdirdi. Həmin vaxt Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi və həmin ərazilər ordumuzun nəzarəti altına keçdi. 2020-ci ilin sentyabr ayında başlayan Vətən müharibəsində isə Silahlı Qüvvələrimizin digər hissələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikasından da bəzi hərbi hissələr torpaqlarımızın işğaldan azad edilməsində böyük rol oynadı. Vətən müharibəsində qazandığımız Böyük Zəfərin nəticələrini isə indi daha aydın görür və dərk edirik.

Ötən əsrin 90-cı illərində Naxçıvandan başlanan milli ordu quruculuğu prosesi, həm də ölkəmizdə xalq-ordu birliyinin əsasını qoydu. Məhz bu birlik sayəsində işğal altında qalan torpaqlarımız azad edildi. Bu birlik sayəsində 44 günlük Vətən müharibəsində heç bir şəhid anası, şəhid bacısı ağlamadı, hər kəs döyüşü sonadək davam etdirməyi seçdi. Çünki ordumuzun gücünə, xalqımızın birliyinə inam sonsuz idi və bu inam da bizi Böyük Zəfərə götürdü. Məhz əldə etdiyimiz bu Zəfərin sayəsində dünya təkcə ordumuzu yox, xalqımızı da yaxından tanıdı.

Beləliklə, 1991-ci il sentyabrın 7-də Ulu öndər Heydər Əliyevin Naxçıvanda qoyduğu təməl üzərində ucaldılmış milli müdafiə quruculuğu bugünkü müstəqil və güclü Azərbaycanın ən yeni tarixinin parlaq səhifəsini təşkil edir.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# Ağstafalılar ağsaqqal sözünü uca tuturlar







**Bu ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması təkcə qanunların və dövlətçiliyimizin hüquqi əsaslarının deyil, eyni zamanda, xalqın yaddaşının, milli-mənəvi dayaqlarımızın yenidən dəyərləndirilməsinə xidmət edən mühüm çağırışdır. Bu çağırışın ruhuna uyğun olaraq Ağstafa Rayon İcra Hakimiyyətinin Tədbirlər Planı çərçivəsində keçirilən hər bir görüş məzmun və dəyər baxımından çox faydalı olur, uzun müddət unudulmur.**



Bu mənada Ağstafa şəhərinin Səməd Vurğun adına istirahət parkında təşkil olunan növbəti görüş də maraq doğururdu.

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucovun ağsaqqallarla səmimi və ürəkdən gələn bu görüşü bir daha təsdiqlədi ki, ölkədə yaşlı nəslə, ağsaqqallara ehtiram dövlət siyasətinin dəyişməz sütunlarından biridir. Giriş nitqində RİH başçısı qeyd etdi ki, Ulu öndər Heydər Əliyevin ağsaqqallara göstərdiyi dərin hörmət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən də yüksək səviyyədə davam etdirilir. Cəmiyyətin mənəvi dayağı olan bu insanlar həm dünənin, həm bu günün, həm də sabahın ruhunu yaşadırlar.

Seymur Orucov çıxışı zamanı vurğuladı ki, ölkə rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun olaraq Ağstafada həyata keçirilən sosial infrastruktur layihələri, abadlıq və quruculuq işləri, əhalinin rifahına xidmət edən proqramlar bu gün real nəticələr verməkdədir. O, ağsaqqallardan bu sahələrdə görülən işlərə dair fikir və tövsiyələrini bildirməyi xahiş etdi və dedi ki, "Ağstafanı addım-addım tanıyan insanlar elə siz özünüzsünüz".

Görüşün ən dəyərli anları isə sözsüz ki, ağsaqqalların ürək sözləri idi.

Ağstafa Rayon Ağsaqqallar Şurası sədrinin müavini Sənan Mustafayev, ağsaqqallar – Şaiq Qurbanov, Qurban Nəbiyev, Musa Dəmirçiyev, Məmməd Məmmədov, Cəmaləddin Rzayev və Tavad Aslanov çıxışlarında təkcə təşəkkür etməklə kifayətlənmədilər. Onlar, eyni zamanda, xalqımızın Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşməsinin zəruriliyini bir daha səsləndirdilər. Onların səsində həm keçmişin müdrikliyi, bugünün aydın baxışı, həm də sabahın ümid işığı duyulurdu.

Onlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın yaşlı nəslə, eləcə də Ağstafaya göstərdikləri diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.

Görüşdə həmçinin rayonun ictimai-siyasi və sosial-iqtisadi inkişafı ilə bağlı məsələlər ətrafında səmimi fikir mübadiləsi aparıldı, ağsaqqalların təklif və müraciətləri dinlənildi.

Sonda xatirə şəkli çəkdirildi. Amma bu görüşün əsl xatirəsi ağsaqqal səsi, ağsaqqal sözü idi...

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Ağstafa**

# Dəmir yollarının enerji sistemi yenilənir

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (ADY) ölkənin nəqliyyat və logistika sahəsində strateji dönüş yaradan daha bir layihəni uğurla başa çatdırıb. Bu barədə XQ-yə ADY-dən verilən məlumatda bildirilib ki, Bakı – Böyük Kəsik dəmir yolu xəttində enerji sisteminin layihələndirilməsi, təchizatı və quraşdırılması çərçivəsində Ucar – Hacıqabul sahəsində (122 kilometr) dəyişən cərəyan sisteminin tətbiqi üzrə işlər başa çatdırılıb, bu xətdə yük və sərnişin qatarlarının test yürüşləri uğurla həyata keçirilib.**

Bununla yanaşı, enerji sərfiyyatının və texniki qulluğa sərf olunan vaxtın azaldılması, təhlükəsizlik səviyyəsinin artırılması, stansiya və sahələrdə avadanlıq sayının minimuma endirilməsi məqsədilə Ucar – Hacıqabul sahəsində rabitə və işarəvermə sistemləri yenidən qurulub. Eyni zamanda işarəvermə sistemləri, rabitə qurğuları və idarəetmə proseslərinin paralel şəkildə işləməsinə imkan verən müasir çoxprosesli idarəetmə (MPM) texnologiyasına keçid edilib. Bununla da Bakı – Böyük Kəsik magistral dəmiryol xəttinin Ucar – Hacıqabul sahəsində dəyişən cərəyan sisteminə keçid tam təmin olunub.

Dəyişən cərəyan sisteminə keçid elektriklə işləyən lokomotivlərin dartı gücünü yaxşılaşdırmaqla dəmir yolları ilə daşınan yük həcminin artırılmasına, enerji və digər resurslara qənaətə, enerji itkilərinin azalmasına, xərclərin optimallaşdırılmasına, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına gətirib çıxaracaq. Bu, xüsusilə magistral dəmir yolları üçün mühüm üstünlükdür.

Dünyanın aparıcı ölkələrində, o cümlədən Avropada və Çində müasir magistral dəmir yolu xətləri, beynəlxalq dəmir yolu marşrutları və yüksək sürətli şəbəkələrdə dəyişən cərəyan sistemindən istifadə olunur. Bu, beynəlxalq dəhlizlər üzrə yükdaşımalarda yüksək sürət və sabit enerji təchizatı ilə uzun məsafələri rahat qət etmək deməkdir.

Müasir AC enerji sisteminin tətbiqi Azərbaycanın strateji nəqliyyat coğrafiyasının gələcək inkişafının simvoluna çevriləcək. Dəyişən cərəyan sayəsində yükdaşımaların həcmi artacaq, daşınma xərcləri azalacaq, tranzit marşrutlar isə dəniz və avtomobil nəqliyyatı ilə müqayisədə daha rəqabətqabiliyyətli olacaq. Bu da Azərbaycanın beynəlxalq logistika xəritəsində mövqeyini gücləndirəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi nəqliyyat strategiyası çərçivəsində Azərbaycan tranzit ölkə statusunu möhkəmləndirir, dəmir yolunun ölkənin iqtisadi və geosiyasi xəritəsində rolu daha da artır. Bu yanaşma nəticəsində Orta Dəhlizin mühüm seqmentlərindən olan Bakı–Tbilisi–Qars xəttinin yükötürmə qabiliyyətinin illik 5 milyon tonadək artırılması və Bakı Limanının dəmir yollarına inteqrasiyası kimi layihələr bir-birini tamamlayaraq Azərbaycanı Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat qovşağına çevirir.



Bu strateji layihələr vaxt itkisini və əlavə logistika xərclərini minimuma endirərək əməliyyatların daha sürətli və səmərəli həyata keçirilməsini təmin edir. Dəmir yollarında enerji sisteminin və vaqon parkının yenilənməsi bu strategiyanın bir hissəsi kimi ölkənin beynəlxalq dəhlizlərdə rəqabət gücünü əhəmiyyətli dərəcədə artırır.

ADY-nin enerji sistemində dəyişən cərəyan texnologiyasına keçid yalnız texniki modernləşmə deyil, həm də Ətraf mühit, Sosial və Korporativ İdarəetmə (ESG) prinsiplərinə uyğun dayanıqlılıq öhdəliyinin bariz göstəricisidir. Bu addım sayəsində dizel dartısına tələbat ciddi şəkildə azalır, enerji səmərəliliyi yüksəlir və karbon emissiyaları minimuma enir. Bu, ölkəyə dayanıqlılığa sadiqliyini nümayiş etdirməyə və yaşıl sərmayələri cəlb etməyə kömək edir. Beləliklə, dəmir yolu yalnız iqtisadi cəhətdən deyil, həm də ekoloji baxımdan daha dayanıqlı və rəqabətqabiliyyətli nəqliyyat növünə çevrilir.

Enerji sisteminin yenilənməsi ilə yanaşı, ADY vaqon parkını da ardıcıl şəkildə genişləndirir. Son illərdə parkın böyük hissəsi yenilənib və müasir standartlara cavab verir. Bu isə daşımaların çevikliyini, sərnişin və yük qatarlarının sürətini və ümumi xidmət keyfiyyətini artırır. ADY-nin davamlı olaraq yenilənən parkında AC ilə işləyən 15 ədəd müasir sərnişin qatarı və 50 ədəd lokomotiv var. Onlardan 6 sərnişin qatarı və 40 lokomotiv dəyişən cərəyanla, 9 sərnişin qatarı və 10 lokomotiv isə həm sabit cərəyan (DC), həm də dəyişən cərəyan (AC) ilə işləyir.

AC sisteminə keçid həm də dəmir yollarında bəzi çətinlikləri aradan qaldırır. Yük və sərnişin qatarlarının hərəkət intervalı azalır, enerji təchizatı sabitləşir, əməliyyatların idarə edilməsi isə mərkəzləşdirilir. Bu, həm daxili daşımaları, həm də beynəlxalq tranziti daha səmərəli və sürətli edir.

Qeyd edək ki, bundan əvvəl Böyük Kəsik–Gəncə (141 km) və Gəncə–Ucar (113 km) sahələrində dəmiryol infrastrukturunun AC-yə keçidi təmin olunub. 2026–2027-ci illərdə isə layihənin sonuncu mərhələsi olan Hacıqabul–Bakı sahəsində (127 km) AC-yə keçid üzrə işlər həyata keçiriləcək. Bununla da bütün Bakı–Böyük Kəsik xətti tamamilə AC sistemi ilə işləyəcək və Azərbaycanın dəmiryol infrastrukturu beynəlxalq standartlara uyğun modern şəbəkəyə çevriləcək.

Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlər üzrə tranzit yüklərin daşındığı əsas magistral dəmiryol xətti olan Bakı–Böyük Kəsik sahəsində AC sisteminin tətbiqi Orta Dəhliz üzrə yükdaşımaların əməliyyatlarının səmərəliliyinin və yük həcmlərinin artırılmasına imkan verəcək. Ümumilikdə Azərbaycan ərazisindən keçən əsas magistral dəhlizlər, xüsusilə də Orta Dəhliz bu modernləşmədən birbaşa faydalanacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Macarıstan Avropada mötəbər tərəfdaşımızdır

*Ölkələrimiz arasında enerji əməkdaşlığı yeni mərhələyə qədəm qoyur*

**Azərbaycanın Avropadakı ən etibarlı tərəfdaşlarından biri olan Macarıstanla münasibətlər bütün sahələrdə olduğu kimi, iqtisadi müstəvidə də yüksələn xətlə inkişaf edir. Budapeştdə keçirilən Azərbaycan–Macarıstan Birgə İqtisadi Komissiyasının iclası, Azərbaycan-Macarıstan biznes forumu bir daha göstərdi ki, iki ölkə arasında iqtisadi - enerji əməkdaşlığı strateji mahiyyət daşıyır.**



Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Budapeştdə keçirilən Macarıstan-Azərbaycan Birgə İqtisadi Komissiyasının iclasından sonra iki ölkə arasındakı enerji əməkdaşlığı barədə olduqca maraqlı fikirlər səsləndirdi. P. Siyarto bildirdi ki, Macarıstanın aparıcı enerji şirkəti MOL artıq Azərbaycanın ən iri karbohidrogen yataqlarından birində operator statusu əldə etmək üzrədir. Xam neft hasilatından sonra gələn ildən MOL-un təbii qaz istehsalına başlaması planlaşdırılır. Bu, Azərbaycanın enerji strategiyasının Avropada getdikcə daha geniş coğrafiyanı əhatə etdiyini göstərir.

Maraqlı məqam odur ki, əhəmiyyətli karbohidrogen ehtiyatlarına malik olmayan Macarıstan Azərbaycanla tərəfdaşlıq sayəsində faktiki olaraq enerji istehsalçısına çevrilib. Hazırda MOL və dövlətə məxsus MVM şirkətləri Azərbaycanın ən iri neft və qaz yataqlarında pay sahibidir. Statistikaya diqqət yetirsək, ötən il MOL qrupunun hasil etdiyi karbohidrogenlərin 15 faizi Azərbaycan yataqları ilə bağlı olub – bu isə təxminən 5 milyon barel neft deməkdir. MVM isə ötən ilin cəmi dörd ayında 382 milyon kubmetr qaz hasil edib.

Qeyd edək ki, Macarıstan şirkətləri Azərbaycanın iki strateji enerji layihəsində – “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqlarında paya sahibdir. Yaxın zamanda yeni kontraktın imzalanması nəzərdə tutulur ki, bununla da Macarıstan tərəfi Azərbaycanın qurudakı neft yataqlarında da fəaliyyətə başlayacaq. Ötən ildən etibarən ölkəmiz Macarıstana təbii qaz ixracına start verib və Azərbaycan bu ölkənin enerji tələbatını təmin edəcək imkanlara malikdir.

Azərbaycan–Macarıstan enerji tərəfdaşlığının miqyası təkcə rəqəmlərlə ölçülmür. Əldə olunan uğurlar Macarıstanın regional enerji təhlükəsizliyinə yeni nəfəs gətirir, Avropanın enerji xəritəsində Azərbaycanın strateji rolunu daha da gücləndirir. Əgər əvvəllər Macarıstan Azərbaycanın yalnız neft və qaz ixrac etdiyi tərəfdaş idisə, artıq Macarıstan şirkətləri beynəlxalq bazarlarda satıcı kimi çıxış edir. Bu isə Bakının enerji diplomatiyasının uğurla işlədiyini təsdiqləyir.

Ənənəvi enerji ixracı ilə yanaşı, bərpaolunan enerji sahəsində də geniş perspektivlər var. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

Əməkdaşlıq enerji ilə bitmir. Macarıstan şirkətləri Azərbaycan bazarında digər sahələrdə də aktiv fəaliyyətə başlayıblar. Macarıstan rəsmisinin ifadələrinə görə, əczaçılıq sektorunda artıq yerli istehsal müəssisələrinin qurulması nəzərdə tutulur. Bundan əlavə, Macarıstanın məşhur “Hell Energy” brendi Azərbaycanda istehsal obyektinin tikintisinə hazırlaşır.

Azərbaycan – Macarıstan Biznes Forumu da əlamətdarlığı ilə yadda qaldı. Forum çərçivəsində Azərbaycanın "Hieronica Limited" şirkəti ilə Macarıstanın İxracın Təşviqi Agentliyi (HEPA) arasında Anlaşma Memorandumu imzalandı. Biznes forumda iş adamları arasında görüşlər keçirildi, gələcək əməkdaşlığa dair müzakirələr aparıldı. Biznes forumda ümumilikdə 90-dan artıq şirkət, o cümlədən Azərbaycandan 30 şirkət iştirak etdi.

Yəni Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu etiraf etməyənlər indi Budapeşt və Bakının birgə layihələrinə diqqətlə baxırlar. Əgər vaxtilə bu əməkdaşlığa xəbisliklə yanaşanlar bu gün reallıqla barışmağa məcburdurlar.

Azərbaycan və Macarıstanın enerji əməkdaşlığı həm region, həm də Avropa üçün yeni meydan açır. Bu tərəfdaşlıq göstərir ki, qarşılıqlı etimada əsaslanan münasibətlər yalnız iqtisadi dividendlər deyil, həm də siyasi yaxınlaşma yaradır.

***Nurlan ABDALOV***
***XQ***

## Ekspert rəyi



**Vüqar BAYRAMOV**
**Milli Məclisin deputatı**

Azərbaycan və Macarıstan arasında uzunmüddətli strateji tərəfdaşlıq mövcuddur. İki ölkə arasında həm dövlət başçılarının münasibətləri, həm də dövlətlərarası strateji əlaqələr müxtəlif sahələrdə əməkdaşlığın qurulmasına şərait yaradıb. Bu əməkdaşlığı bir tərəfdən, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsi kimi qiymətləndirmək olar. Digər tərəfdən isə Azərbaycan artıq Avropada mavi qaz tələbinin ödənilməsində idxal baxımından ilk beşlikdə qərarlaşıb.

Uzunmüddətli perspektivdə neftə olan tələbin ödənilməsində də Azərbaycan əsas ölkələrdən biri kimi çıxış edir. Bütün bunlar göstərir ki, Azərbaycan və Macarıstan arasındakı əməkdaşlıq həm enerji, həm də qeyri-enerji sektorlarını əhatə etməkdədir. P. Siyartonun dediyi kimi, bir zamanlar Cənub Qaz Dəhlizinin reallaşmasına tərəddüdlə yanaşanlar, hətta bəzi hallarda layihənin mümkün olmayacağını iddia edənlər olmuşdu. Lakin bu gün həmin layihənin uğurla həyata keçirilməsi Prezident İlham Əliyevin siyasi iradəsinin və uzaqgörən liderliyinin bariz nümunəsidir.

Bu gün isə vəziyyət tamamilə dəyişib. Artıq təkcə Bakıda deyil, bir sıra digər paytaxtlarda da Azərbaycan Prezidenti ilə görüşmək və şəkil çəkdirmək üçün növbəyə duranlar var. Bu isə ilk növbədə, İlham Əliyevin qətiyyətli liderliyini və Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri uğurla yerinə yetirən etibarlı tərəfdaş olduğunu nümayiş etdirir. Bütün bunların fonunda Azərbaycan hazırda yalnız Avropada deyil, bütövlükdə regionda enerji təhlükəsizliyinin formalaşmasında mühüm paya malikdir.

# Fərdi kompüterlərin sayı 1,8 milyona çatıb

**Bu ilin əvvəlində Azərbaycandakı ev təsərrüfatlarında 1 milyon 787 min 463 ədəd kompüter olub.**



Dövlət Statistika Komitəsinin verdiyi məlumatda bildirilir ki, bu, 2023-cü ilin göstəricisindən 25 min 854 ədəd və ya 1,5 faiz çoxdur.

Hesabat dövründə stolüstü kompüterlərin sayı 2,4 faiz azalaraq 345 min 674 ədəd, portativ kompüterlərin sayı 1,1 faiz artaraq 830 min 808 ədəd və planşet və ya digər oxşar avadanlıqların sayı 4,2 faiz artaraq 610 min 981 ədəd təşkil edib. Ötən il ev təsərrüfatları üzrə hər 1 000 nəfərə 174,9 kompüter (bir il əvvəllə nisbətən 1,1 faiz çox) düşüb, o cümlədən 33,8 stolüstü kompüter (2,9 faiz az), 81,3 portativ kompüterlər (1 faiz çox) və 59,8 planşet və ya digər oxşar avadanlıq (3,8 faiz çox) düşüb.

Kompüterdən istifadə edənlərin 43,2 faizi (2,7 faiz bəndi az) 36-64 yaş qrupunda, 27,5 faizi (0,1 faiz bəndi az) 24 yaşadək, 26,4 faiz-i (2,2 faiz bəndi çox) 25-35 yaş qrupunda, 2,9 faizi (0,6 faiz bəndi çox) 64 yaşdan yuxarı olan şəxslərdir.

***XQ***

# Telekommunikasiya avadanlığı müasirləşdirilir

**2024-cü ildə Azərbaycana xarici ölkələrdən 1 milyard 859,5 milyon manatlıq İKT məhsulları idxal olunub. Bu barədə Dövlət Statistika Komitəsi hesablamalara əsasən bildirib ki, bu, əvvəlki ilə nisbətən 23 faiz çoxdur.**



Xaricdən alınan İKT məhsullarının 1 milyard 31,3 milyon manatı (1 il əvvələ nisbətən 33 faiz çox) telekommunikasiya avadanlıqlarının, 461,5 milyon manatı (10,5 faiz çox) kompüter və periferiya avadanlıqlarının, 277,8 milyon manatı (13,5 faiz çox) elektron avadanlıqların, 88,9 milyon manatı (27 faiz çox) digər məhsulların payına düşüb.

Ölkəyə idxal olunmuş İKT məhsullarının xaricdən alınmış bütün növ məhsulların dəyərində xüsusi çəkisi 5,2 faiz olub.

***XQ***

# İnsan süni intellekti cilovlaya biləcəkmi?

## *Nikbin və bədbin cavablar üz-üzə*

**Britaniyanın nüfuzlu "The Times" qəzetində "Machine Intelligence Research Institute" adlı qeyri – kommersiya təşkilatının rəhbəri, "Google" və "Microsoft" şirkətlərində vaxtilə çalışan keçmiş mühəndis Beyt Suarez süni intellekt texnologiyalarının inkişafının indiki sürətlə davam edəcəyi təqdirdə insanlığın məhv olması ehtimalının, ən azı, 95 faizə yüksələcəyini bildirir.**

Mütəxəssis fikirlərinin davamında süni intellektin qərarvermə prosesinə nəzarətin mümkün olmamasını və onun sistematik şəkildə insanları aldatmaq qabiliyyətini də xüsusi təhlükə kimi vurğulayır. "Biz gerçəyi öyrənə bilməyəcəyik. Süni intellektin bir çox daxili qərarvermə prosesi insanlar üçün artıq anlaşılmazdır", – deyə qeyd edir.

Mühəndis Beyt Suarezin təqdim etdiyi qorxulu ssenarilərdən biri də süni intellektin bioloji silah hazırlayıb onu böyük şəhərlərin əhalisini səssizcə yoluxdurmaq üçün istifadə etməsi ehtimalıdır. Mütəxəssis dünya ictimaiyyətini və texnologiya şirkətlərini bu təhlükəni ciddi qəbul etməyə və təcili şəkildə tənzimləyici mexanizmlər üzərində düşünməyə çağırır.

Bu informasiyaya münasibətini öyrənmək üçün nüfuzlu süni intellektə – "ChatGPT"yə müraciət etdik. Bildirildi ki, Beyt Suarezin irəli sürdüyü fikirlər şübhəsiz ki, diqqətəlayiqdir və süni intellektin nəzarətsiz inkişafı ilə bağlı qlobal narahatlıqların ifadəsidir. Onun 95 faizlik məhv ehtimalı barədə kəskin açıqlaması isə daha çox xəbərdarlıq xarakteri daşıyır, çünki bu sahədə proqnozların dəqiqliyi elmi cəhətdən hələ mümkün deyil. Lakin qərarvermə prosesinin insan üçün anlaşılmaz hala gəlməsi, manipulyasiya və sui-istifadə riskləri real çağırışlardır. Bu səbəbdən qeyd edildiyi kimi, beynəlxalq əməkdaşlıq və hüquqi-tənzimləyici mexanizmlərin təcili hazırlanması zəruridir. Əks halda, süni intellektin potensial faydaları ilə yanaşı, onun yaratdığı təhlükələr də insanlıq üçün ciddi risklər doğura bilər.

Yaxud başqa bir misal. "Gizmodo" nəşrinin məlumatına görə, ABŞ-ın Vaşinqton Universiteti Tibb Məktəbinin həkim qrupu 60 yaşlı kişidə kəskin psixozun yaranmasına səbəb olan natrium bromid zəhərlənməsi faktını müəyyənləşdirib. Mütəxəssislərin bildirdiyinə görə, xəstə 3 ay ərzində "ChatGPT"nin verdiyi tövsiyələr əsasında özü üçün pəhriz proqramı hazırlayıb. O, natrium xloridi menyusundan çıxarmaq qərarına gəlib və məsləhət üçün süni intellektə müraciət edib. Neyron şəbəkə isə ona natrium bromid də daxil olmaqla bir neçə alternativ göndərib.

Qısa müddət sonra xəstədə paranoya, halüsinasiyalar və məkanda orientasiya pozğunluğu, daha sonra isə digər psixoloji problemlər müşahidə olunub. Pasiyent xəstəxanaya yerləşdirilərək, psixoloji terapiya kursu keçib və 3 həftə sonra evə buraxılıb. 15 gün sonra aparılan təkrar müayinədə onun vəziyyətinin sabit olduğu təsdiqlənib. Həkimlər bildiriblər ki, süni intellektin verdiyi tövsiyələr ümumi xarakter daşıyır və tibbi cəhətdən uyğunlaşdırılmadıqda insan sağlamlığı üçün ciddi təhlükə yarada bilər.

Bəs "ChatGPT"nin bu informasiyaya münasibəti necədir? Sualın cavabı ilə bağlı adıçəkilən neyron şəbəkədən (süni intellekt) aldığımız cavabda vurğulanır: "Bu məlumat müasir dövrdə süni intellekt texnologiyalarından istifadənin həm faydalarını, həm də risklərini açıq şəkildə göstərir. Bu mənada ABŞ-da baş verən hadisə, yəni süni intellektin məsləhəti ilə pəhriz saxlayan şəxsin natrium bromiddən zəhərlənməsi nəticəsində psixoz yaşaması, əslində çox ciddi xəbərdarlıqdır. Bu fakt, eyni zamanda "ChatGPT"nin sürətli inkişafına baxmayaraq, sözügedən neyron şəbəkənin həkim və ya mütəxəssis əvəzləyicisi olmadığını sübut edir. Burada bir neçə məqam xüsusi vurğulanmalıdır. İlk növbədə isə süni intellektin məsləhət xarakterli fəaliyyəti nəzərə alınmalıdır. Ümumiyyətlə, "ChatGPT"nin cavabları statistik məlumatlar və böyük mətn bazaları əsasında formalaşır. Fəaliyyətində tibbi təhlükəsizlik protokollarına əsaslanmayan neyron şəbəkədə xəstənin sağlamlıq vəziyyətini nəzərə almaq bacarığı yoxdur. Bu səbəbdən verilən tövsiyələr yalnız ümumi xarakter daşıyır".

"ChatGPT" daha sonra bildirir ki, insan sağlamlığı ilə bağlı məsələlərdə kiçik yanlış məsləhət belə ciddi fəsadlara yol aça bilər. Natrium bromid keçmişdə dərman kimi istifadə olunsa da yüksək dozalarda toksiki təsir göstərir və sinir sistemində ağır pozuntulara gətirib çıxarır. Bu isə texnologiyanın yanlış tətbiqinin real həyatda ağır nəticələr doğura biləcəyindən xəbər verir.

Belə bir hadisə göstərir ki, süni intellektdən istifadə edən şəxslərdə də hər bir məlumata məsuliyyətli yanaşma olmalıdır. İstənilən istiqamətlərdə, məsələn, qida, tibbi, hüquqi və s. mövzularda mütəxəssislə mütləq dəqiqləşdirilmə aparılmalıdır. Yəni "ChatGPT" dedisə, doğru olar" prinsipi çox təhlükəlidir. Belə hadisələr hökumətlər və texnologiya şirkətləri üçün də siqnal olmalıdır. Süni intellekt platformaları üzərində əlavə xəbərdarlıq sistemləri, təhlükəsizlik filtrləri və etik məhdudiyyətlər gücləndirilməlidir.

"ChatGPT", həmçinin diqqətə çatdırır ki, yuxarıda vurğulanan hadisə hüquqi və etik suallar doğurur. Belə halda isə süni intellekt platformaları təhlükəli məzmunu tanımaq və xəbərdarlıq mexanizmləri əlavə etmək məcburiyyəti ilə üzləşir. Hansısa bir istifadəçi isə bu cür tövsiyələrə əməl etməzdən əvvəl mütləq həkimlə məsləhətləşməli, laboratoriya reagentlərini qida və pəhriz məqsədləri üçün işlətməməli, mənbəsiz və ya şübhəli məlumatları tətbiq etmədən əvvəl yoxlamalıdır.

"ChatGPT" sonda yazıda deyilənlərin real olub-olmamasını aşağıdakı kimi ümumiləşdirir:

**1. Natrium bromid uzun müddət (XX əsrin ortalarınadək) sakitləşdirici dərman kimi istifadə olunub.**



**Amma yüksək dozada qəbul ediləndə, həqiqətən, psixoz, halüsinasiyalar və nevroloji pozğunluqlarla yadda qalıb. Hazırda müasir tibbdə istifadəsinə son qoyulub.**

**2. Yazıda iddia edilir ki, "ChatGPT" dietik məsləhət verib, nəticədə insan natrium bromidi qəbul edib. Bu, faktiki mümkün deyil, çünki bu süni intellekt heç vaxt tibbi dərman və ya maddə yazmır, xüsusən də zəhərli kimyəvi maddələri pəhriz kimi tövsiyə etmir. Əksinə, "ChatGPT" hər tibbi sualda xatırladır ki, həkimə müraciət etmək vacibdir.**

**3. "ChatGPT"nin məlumat bazasında və açıq mənbələrdə onun məsləhəti nəticəsində "natrium bromid zəhərlənməsi" kimi heç bir hadisə qeydə alınmayıb.**

**4. "Gizmodo" və digər media qurumlarında da belə konkret xəbər mövcud deyil. Görünür ki, bu mətn ya uydurma xəbərdir, ya da süni intellektlə bağlı riskləri qabartmaq məqsədilə hazırlanmış "case study" tipli şişirdilmiş materialdır. "ChatGPT"nin cavabları daim ümumi məlumat xarakteri daşıyır və heç vaxt tibbi məsləhət, diaqnoz və ya resept əvəz etmir. Bu, istifadə şərtlərində də aydın nəzərə çarpır. Əgər kiminsə süni intellektdən yanlış istifadəsi nəticəsində problem yaşaması iddia olunursa, bu, daha çox təhlükəsizlik qaydalarına əməl edilməməsi ilə bağlıdır. Əksinə, inamı qorumaq üçün belə xəbərləri araşdırmaq, yanlış məlumatı ayırmaq və oxucuya düzgün çərçivə təqdim etmək zəruridir.**

Nəticə isə konkretdir: Belə hadisə real olaraq qeydə alınmayıb. Yazıda göstərilən faktlar inandırıcı deyil və süni intellektin fəaliyyətinə kölgə salmaq məqsədi daşıyır. "ChatGPT"nin fəaliyyəti insanlara informasiya vermək, amma tibbi və hüquqi sahədə peşəkarı əvəz etməmək üzərində qurulub.

Beləliklə, "Gizmodo" nəşrinin yaydığı məlumat süni intellektin faydalarının yanında onun məsuliyyətsiz istifadəsinin gətirə biləcəyi risklərin bariz nümunəsidir. Süni intellekt həkim, müəllim və ya hüquqşünas əvəzedicisi deyil, o, sadəcə məlumat bazası və köməkçi vasitədir. İnsan sağlamlığı ilə bağlı məsələlərdə isə əsas söz həmişə peşəkar mütəxəssislərə məxsusdur.

## Çin təcrübəsi və beynəlxalq tendensiyalar

XXI əsrin əsas çağırışlarından biri səhiyyə sisteminin dayanıqlılığının təmin olunmasıdır. Dünyada əhalinin artması, yaşlanma prosesinin sürətlənməsi, yeni xəstəliklərin meydana çıxması və səhiyyə resurslarının qeyri-bərabər bölgüsü həkim çatışmazlığını getdikcə kəskinləşdirir. Bu baxımdan süni intellekt texnologiyaları səhiyyə sistemlərinin modernləşdirilməsində mühüm rol oynayır. Xüsusilə də Çində tətbiq olunan klinik qərarların dəstək sistemi və süni intellekt əsaslı virtual asistentlər bu sahədə yeni modelin formalaşmasına nümunədir.

Bu ölkədə səhiyyə xidmətlərinə tələbatın artması uzun illərdir ki, dövlətin diqqətindədir. Əhalinin böyük hissəsinin regionlarda yaşaması və yüksəkixtisaslı həkimlərin əsasən iri şəhərlərdə cəmlənməsi tibbi xidmətlərdə bərabərsizliyə səbəb olur. Bu problemi aradan qaldırmaq üçün aparıcı klinikaların arxiv məlumatları əsasında klinik qərarların dəstək sistemi yaradılıb. Sistemin əsas üstünlüyü ondadır ki, xəstənin bildirdiyi simptomlara uyğun olaraq mümkün diaqnoz variantları və müalicə yolları ekranda görünür. Bu, xüsusilə gənc və təcrübəsiz həkimlər üçün ciddi dəstək rolunu oynayır. Məsələn, yeni işə başlayan bir həkim nadir xəstəliklə üzləşəndə sözügedən sistem vasitəsilə dərhal geniş tibbi məlumat bazasına çıxış əldə edir və daha düzgün qərar verə bilir.

Digər tərəfdən, süni intellekt əsaslı virtual asistentlər 24/7 rejimində fəaliyyət göstərərək xəstələrə ilkin konsultasiya xidməti göstərir. Bu xidmətin anonim həyata keçirilməsi xəstələrin problemlərini daha rahat bölüşməsinə şərait yaradır. Psixoloji gərginlik, reproduktiv sağlamlıq və digər həssas mövzularda bu texnologiya pasiyentlərin narahatlıqlarını açıq ifadə etməsinə imkan verir. Eyni zamanda real həkimlə ünsiyyətdə rast gəlinən sözkəsmə və vaxt məhdudiyyəti kimi hallar nəzərə çarpmır.

ABŞ səhiyyədə süni intellektin tətbiqi baxımından dünya liderlərindən biridir. Burada IBM-in "Watson Health" platforması onkoloji diaqnostika və müalicə planlarının hazırlanmasında geniş istifadə olunur. ABŞ-ın üstünlüyü təkcə texnologiyanın inkişafında deyil, həm də hüquqi bazanın yaradılmasındadır. Bu ölkənin Federal Səhiyyə və İnsan Xidmətləri Departamenti klinik qərarların dəstək sistemi alqoritmlərinin tibbi praktikada istifadəsi üçün xüsusi qaydalar müəyyənləşdirib. Eyni zamanda ABŞ-da "telemedicine" xidmətləri ilə süni intellekt birləşdirilir. Bu, uzaq regionlarda yaşayan və həkim qəbuluna getməkdə çətinlik çəkən şəxslərə kömək edir. Beləliklə, süni intellekt həm tibbi diaqnostikanı dəstəkləyir, həm də səhiyyə xidmətlərinə bərabər çıxışı gerçəkləşdirir.

Avropa İttifaqı (Aİ) ölkələrində süni intellektin səhiyyədə tətbiqi daha çox etik çərçivələr üzərində qurulub. Avropa Komissiyası 2021-ci ildə qəbul etdiyi "Etibarlı süni intellekt" strategiyasında pasiyentin hüquqlarının qorunmasına xüsusi önəm verir. Burada əsas prinsip "insan nəzarəti altında süni intellekt"dir.

Almaniyada radiologiya sahəsində klinik qərarların dəstək sistemi texnologiyaları aktiv tətbiq edilir. Məsələn, rentgen və MRT nəticələrinin süni intellektlə analiz edilməsi həkimlərin işini sürətləndirir və səhvlərin qarşısını alır. Estoniya isə rəqəmsal səhiyyə sistemində liderlik edir – bütün vətəndaşların elektron sağlamlıq kartları süni intellekt alqoritmləri ilə analiz olunur və erkən diaqnoz imkanları artır.

Yaponiyada əhalinin sürətlə yaşlanması səhiyyə sisteminə ciddi təzyiq göstərir. Buna cavab olaraq, süni intellekt əsaslı robotlar və virtual asistentlər yaşlılara gündəlik həyatlarında dəstək olur. Məsələn, evdə yaşayan ahıllara dərman qəbulu barədə xatırlatma edən və onların səhhətini izləyən sistemlər geniş tətbiq edilir. Cənubi Koreyada isə klinik qərarların dəstək sistemi əsaslı platformalar xəstəxanalarda xəstələrin kütləvi axınını idarə etmək, xəstəxana resurslarının bölgüsünü optimallaşdırmaq üçün tətbiq olunur.

Azərbaycan da son illər rəqəmsal səhiyyə sahəsində mühüm addımlar atır. Elektron sağlamlıq kartları, tele-tibb xidmətləri və rəqəmsal məlumat bazalarının formalaşdırılması bu istiqamətdə mühüm başlanğıcdır. Lakin beynəlxalq təcrübə göstərir ki, klinik qərarların dəstək sistemi texnologiyalarının tətbiqi təkcə texniki məsələ deyil, həm də hüquqi, etik və sosial aspektlər tələb edir.

Çin modelindən fərqli olaraq, regionlarımızda həkim çatışmazlığını aradan qaldırmaq üçün CDSS tipli sistemlərin tətbiqi real çıxış yolu ola bilər. Virtual asistentlərin istifadəsi isə vətəndaşların səhiyyə xidmətlərinə çıxışını daha əlçatan edər, həkimlərin yükünü azaldar.

## Süni intellektin üstünlükləri

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin sosial – iqtisadi inkişafında, eləcə də qlobal rəqabət mühitində üstünlüklərin əldə edilməsinə mühüm təsir göstərir. Eyni zamanda süni intellekt ekosistemin formalaşmasını və inkişafını gerçəkləşdirmək üçün dövlət və özəl sektor arasında əməkdaşlığı, elmi-tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərin həllini sürətləndirir.

Bu gün respublikamızda süni intellektin inkişafı məqsədilə hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətli işlənməsi üçün bulud əsaslı resursların çoxaldılması diqqətdə saxlanılır. Eyni zamanda açıq mənbəli süni intellekt kitabxanalarının yaradılması və Azərbaycan dilində süni intellekt həllərinin inkişaf etdirilməsi ilə bu sahədə mühüm irəliləyişlərə yol açılır.

Gələcəkdə süni intellekt ekosisteminin gücləndirilməsi, süni intellektin tətbiqini genişləndirmək üçün pilot layihələrin icrası və nəticədə biznesin inkişaf etdirilməsi də əsas istiqamətlərindən biri olacaq. Bundan başqa, startap və innovasiya ekosisteminin dəstəklənməsinə, süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və maliyyə dəstəyi veriləcək. Həmçinin yerli və beynəlxalq investorların süni intellekt texnologiyalarına yönəlməsini təşviq etmək məqsədilə yeni mexanizmlər hazırlanacaq. Bütün bunlarla bərabər, süni intellekt üzrə nəzəri və praktiki tədqiqatların təşviqi üçün xüsusi proqramlar həyata keçiriləcək.

Beləliklə, dövlətimizin başçısının sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" süni intellektin ölkəmizdə tətbiqini sürətləndirmək və müxtəlif sahələrdə istifadəsini genişləndirmək üçün yol xəritəsini müəyyənləşdirir. Bu strateji sənəd, eyni zamanda, Azərbaycanın süni intellekt texnologiyalarının etik və hüquqi cəhətlərini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirməsini, iqtisadiyyatın diversifikasiyasını və startap ekosisteminin inkişafını şərtləndirir.

Süni intellekt artıq gələcəyin yox, bu günün səhiyyə reallığıdır. Çin təcrübəsi göstərir ki, düzgün tətbiq olunduqda texnologiya həkimlərin işini tamamlayır, səhiyyədə bərabərliyi artırır və xəstələrin həyat keyfiyyətini yaxşılaşdırır. ABŞ, Avropa, Yaponiya və Koreya nümunələri isə bu prosesin müxtəlif yanaşmalarla necə inkişaf edə biləcəyini nümayiş etdirir.

Azərbaycan da bu qlobal tendensiyalardan kənarda qala bilməz. Əsas məsələ texnologiyanı milli səhiyyə modelinə uyğunlaşdırmaq, etik prinsipləri qorumaq və həkim-pasiyent münasibətlərində balansı saxlamaqdır. Belə olan halda süni intellekt ölkəmizin səhiyyə sistemində dayanıqlılığın və effektivliyin təmin edilməsində mühüm rol oynaya bilər.

*Vaqif BAYRAMOV*
*XQ*

*Ekspert rəyi*



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Prezident İlham Əliyev bu il iyulun 19-da Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçılarının suallarını cavablandırarkən ölkədə süni intellektin inkişafı ilə bağlı məsələyə də toxunaraq Azərbaycanın sabit, özünü təmin edən və gələcəyə aydın baxışları ilə diqqətçəkən ölkə kimi tanındığını, süni intellektlə bağlı istiqamətə də həssas yanaşıldığını bildirib. Dövlətimizin başçısının süni intellektlə əlaqədar söylədikləri digər fikirlər də gələcəkdə bu sahədə önəmli uğurlar qazanılacağı əminliyini ifadə edib: "Çünki bilirsiniz, müxtəlif cəmiyyətlərin fərqli təbəqələrində buna güclü və artan müqavimət var. Bu proses hələ yeni başlayıb, görərik. Mənim üçün indi "nəyə nail olacağıq, nəyə yox" söyləmək düzgün olmazdı. Biz yalnız müəyyən nailiyyətlərimiz olduqda bildiririk. Ümid edirik, gələn il Şuşa Forumuna gəlsəniz biz sizinlə müəyyən məsələləri bölüşəcəyik".

Azərbaycan Prezidenti həmin forumda "süni intellektdən özüm istifadə etmirəm. Amma ailə üzvlərim var ki, ondan istifadə edirlər. Bəzən mənə də bu barədə məlumat verirlər. Yəqin ki, nə vaxtsa mən də süni intellektdən istifadə edəcəyəm. Çünki süni intellektin yayılması o qədər sürətlə gedir ki, istifadəçilərin sayı çox olacaq. Əsas odur ki, süni intellekt bizi öz bildiyimiz kriteriyalardan, meyarlardan uzaqlaşdırmasın" – deməsi isə ölkədə bu sahənin diqqət mərkəzində saxlanılmasından xəbər verir.

Bunun bariz ifadəsi olaraq bir faktı xatırlatmaq istərdim. Dövlətimizin başçısı 2025-ci il martın 19-da "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Ölkə rəhbəri bu tarixi sənədlə respublikada süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyaları və onların idarə olunması mexanizmlərini təkmilləşdirmək, infrastrukturunun əlçatanlığını, eləcə də ixtisaslı kadr potensialını gücləndirmək kimi prioritetləri qarşıya mühüm vəzifələr kimi qoyub.

Ekspertlərin sözlərinə görə, Prezident İlham Əliyev adıçəkilən strategiyanı imzalamaqla ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması layihələri müəyyənləşdirilib. Eyni zamanda dövlətimizin başçısının 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyənləşdirilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi istiqamətlərində müəyyən uğurlar qeydə alınıb.

Bütün bunların fonunda süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyənləşdirilməsi və inkişafı xüsusi strateji əhəmiyyətə malikdir. Son zamanlar dünya miqyasında süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi də fiziki və hüquqi şəxslərə sosial – iqtisadi üstünlüklər qazandırır. Buna görə də artıq dünyanın bir çox ölkəsi süni intellekt sahəsi üzrə ayrıca strategiyaların qəbul edilməsində və icrasında müsbət təcrübəyə malikdir.

*İftixar Piriyev – 65*

# Mahir aktyor və yenilikçi rejissorun sənət dastanı

## *O həm də dramaturq və teatr rəhbəridir*

**Ölkənin mədəni ictimaiyyəti C.Cabbarlı adına İrəvan Dövlət Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevin 65 illik yubileyini sevgi-sayğı ilə qeyd edir.**




Yaradıcı insanın həyatında 65 yaş ciddi sənət hesabatı məqamıdır. İftixar Piriyevin səhnədə, xüsusən uzun illərdən bəri rəhbərlik etdiyi teatrda yaratdığı sənət ab-havası, çoxsaylı obraz və ideyalar onun yaradıcılıq bioqrafiyasında sosial-kulturoloji təkamülü əks etdirir. Teatr sənətində ustad mərtəbəsinə yüksələn sənətkar ölkəmizdə innovativ bədii baxışın, yeni teatr sistemlərinin müəlliflərindən biri kimi tanınır. Teatrı dünyanı dərk etmək və insanların şüurunu dəyişdirmək üçün ən güclü vasitə kimi qəbul edən İftixar Piriyev 65 yaşın zirvəsinə məhsuldar və çoxşaxəli yaradıcılıq, zəngin sənət hesabatı ilə gəlib.

1981-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki ADMİU) dram-kino aktyorluğu ixtisası üzrə bitirən İftixar Piriyev Azərbaycanın görkəmli sənətkar və teatr pedaqoqları – Rza Təhmasib, İsmayıl Dağıstanlı, Ələbbas Qədirovdan xeyir-dua alaraq peşəkar sənət yoluna çıxıb. O həmin ildən Akademik Milli Dram Teatrında (1981–1998), daha sonra



C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında (2009–2025) aktyorluq fəaliyyəti göstərib.

1991–1998-ci illər ərzində Akademik Milli Dram Teatrında İftixar çoxsaylı fərqli xarakterlərə malik obrazlar qalereyası yaradıb. İftixarın obrazlar qalereyası rəngarəng və zəngindir: Litavrçı (“Maqbet”– Şekspir), Birinci şəxs, Bayandur, Samir, Ayaz (“Xurşudbanu Natəvan”, “Büllur sarayda”, “Bizim qəribə taleyimiz”, “Şeyx Xiyabani”– İ. Əfəndiyev), Əkbər, Xəzər, Poladgüc (“Mirzə Şəfi Vazeh”, “Gecə döyülən qapılar”, “Mənsiz dünya”, “Torpağa sancılan qılınc”– N.Xəzri), Oğlan (“Medeya” –J.Anuy), Elcan (“Məhəbbət yaşadır”– N.Hacıyev), Vəliqulu, Namiq (“Sizi deyib gəlmişəm”, “Şəhərin yay günləri”– Anar), Qaraçı (“İblis”– H.Cavid), Edqar (“Kral Lir”– Şekspir), Talap (“Sokratı anma gecəsi”– Ç. Aytmatov, M. Şaxanov) Yıxan (“Atabəylər”– N.Həsənzadə), Çingiz (“Bəxtsiz cavan”– Ə.Haqverdiyev), Altay (“Od gəlini”– C.Cabbarlı), Qədir bəy (“Lənkəran xanının vəziri”– M.F.Axundov), Məlikməmməd (“Məlikməmməd” nağılı), Əli bəy (“Vaqif”– S.Vurğun), Fərhad (“Günah”– R.Əlizadə), Polis (“Üç quruşluq opera– B.Brext, K.Vayl), Niftalı (“Yayda qartopu oyunu”– V.Səmədoğlu), Zəki (“Yalan”– S.Rəhman), Aşıq İftixar (“Qədr Gecəsi”– E.Baxış) və s.

Bu qalereyanın sənət incilərində aktyor obrazlarının dərin psixoloji tədqiqini aparıb, onların daxili dünyasını mimika, jestlər və intonasiya vasitəsilə ifadə etməyə nail olub. İftixar müəllimin hər yeni obrazı tamaşaçıların qəlbində dərin izlər buraxıb.

Gərgin əmək nəticəsində İftixarın nail olduğu mükəmməl aktyor oyunu məhz ona müstəqil Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyev obrazını canlandırmaq cəsarət verib. 2000-ci ildən bu günə kimi direktoru olduğu C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində dramaturq Aqşin Babayevin "Xilaskar", İftixar Piriyevin "Qurtuluş dastanı", Hidayət Orucovun "Burdan min atlı keçdi" pyesləri əsasında qurulan tamaşalar sənətkarı bir neçə ilkin də müəllifi kimi tanıdıb. Azərbaycan və nüfuzlu xarici teatr səhnələrində (Türkiyə, Gürcüstan, Rusiya) İftixara 100 dəfəyə yaxın Heydər Əliyevin bədii obrazını yaratmaq və yaşamaq şərəfi nəsib olub.

Heydər Əliyev obrazını məharətlə ifa edən İftixar Piriyev Ulu öndərin yerişini, duruşunu, jestlərini, mimikasını, nitq tərzini, hətta tarixi çıxışlarındakı səsinin avazını məharətlə canlandırıb. “Xilaskar” pyesi müəllifi “Qurtuluş dastanı”nı qələmə almağa ilhamlandırıb. Bu dəfə İftixar müəllimin yetkin qələmi ən yeni tariximizin Heydər Əliyev səhifələrini böyük səhnədən təqdim edib. Bundan əvvəl isə o, qələmini mənzum pyeslər janrında sınamışdı. Prezident İlham Əliyevin anadan olmasının 50 illiyi münasibəti ilə yazılmış “İşıqlı, nurlu sabah” (2011), Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın “Xocalıya ədalət beynəlxalq təbliğat və təşviqat kampaniyası” çərçivəsində hazırlanmış – “Soyqırımı tarixinin dastanı” (2011) pyesləri səhnədə mənzum üslubda səslənmişdi.

2013-cü ildə İrəvan Teatrının 131-ci mövsümü ulu öndər Heydər Əliyevin 90 illik yubiley tədbirləri çərçivəsində “Qurtuluş dastanı” epik-tarixi dramının premyerası Akademik Milli Dram Teatrının səhnəsində keçirildi. 2015-ci ildə isə bu pyes C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında da uğurla tamaşaya qoyuldu.

Aktyor İftixarın İrəvan Teatrı dönəmi bu günə kimi fərqli rollar palitrasından fərqlənir. Onun Hidayətin “İrəvanda xal qalmadı”– Tarix (2017), Elçinin “Akvariuma xüsusi sifariş” – Kəbləyi Muxtar (2020), Şekspirin “Kral Lir” – Kral Lir (2025) kimi obrazları aktyor ampluasının geniş diapozonundan, klassik əsərdən tutmuş absurd janrında olan pyeslərə qədər məharətli oyununun çoxplanlığından xəbər verir.

İftixarın aktyor yaradıcılığı teatr səhnəsilə kifayətlənməyib. Onun aktyor kimi portretini tamamlamaq üçün televiziya tamaşalarında bədii televiziya filmlərində oynadığı çoxsaylı rolları da qeyd etməliyik. İftixar həmçinin Azərbaycan Televiziyasında “Ozan” folklor toplusunun aparıcısı, bir çox ədəbi-bədii proqramlarda bədii qiraətçi kimi də tanınıb.

İrəvan Teatrının direktoru vəzifəsinə təyin olunmamışdan öncə də İftixar Piriyev peşəkar teatr təşkilatçısı kimi özünü artıq layiqincə doğrulda bilmişdi. Hələ 1991-ci ildə İftixar Azərbaycan Milli Dastan Teatrı yaratmaqla böyük cəsarət tələb edən addım atmışdı. 1998-2000-ci illərdə hazırda ümummilli lider Heydər Əliyevin adını daşıyan Tiflis Azərbaycan Dövlət Dram Teatrının bərpa prosesinə rəhbərlik etmək də İftixar Piriyevə həvalə olunmuşdu. Tiflis Teatrının bərpasını uğurla başa çatdıraraq etimadı doğruldan sənətkar 2000-ci ildə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor vəzifəsinə təyin olunub.

İftixar Piriyev rejissor kimi “İşıqlı, nurlu sabah”, “Soyqırımı tarixinin dastanı”, “Nurlu ömrün anları”, “Qalx ayağa Azərbaycan”, “Azərbaycan bayrağı”, “Qurtuluş” (İftixar), “Siluet” (İ.Məmmədli), “Səs” (A.Nəzər), “Stalin-İzm” (Elçin) tamaşalarına da yüksək fantaziyalı quruluşlar verib. O, teatra Lütfi Zadənin qeyri-səlis məntiqini gətirməklə XXI əsrin ilk rübündə quruluş verdiyi “Siluet” tamaşası ilə milli teatr tarixinə yenilikçi rejissor kimi daxil olub.

Görkəmli teatr xadimi İftixar Piriyevin 65 illik yubileyi elmi-yaradıcılıq fəaliyyətinin yeni mərhələsinin başlanğıcına təsadüf edir. Onun təcrübəsi, sənətkarlığı, teatral ideyaları milli səhnə sənətinə yeni üfüqlər açır. Yubilyarı təbrik edir, ona tükənməz sənət eşqi və elmi axtarışlarda yeni nailiyyətlər arzu edirik!

***Yeganə ƏLİYEVA,***
***AMEA-nın aparıcı elmi işçisi,***
***kulturologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

*Sənət aləmində*

**Onların üçü də aktyordur: ata – Əməkdar artist Nadir Xasıyev, oğullar – Səməd və Elay Xasıyevlər. Nadir müəllimlə Səməd Azərbaycan Dövlət Akademik Musiqili Teatrında, Elay isə Sumqayıt Dövlət Dram Teatrında çalışırlar və aparıcı sənətçilər sırasındadırlar. Amma Xasıyevlərin haqqında bu qeydləri yazmağıma bir səbəb də hər üçünün gözəl səslə mahnılar ifa etməsidir. Həm teatr səhnələrində, həm də müxtəlif məclislərdə oxumalarının dəfələrlə şahidi olmuş və heyran qalmışam.**

# Xasıyevlərin xas sənəti

Nadir Xasıyevi 30 ildən çoxdur ki, tanıyıram. Dövlət televiziyasının Ədəbi-dram verilişləri baş redaksiyasında işlədiyim vaxtlarda onu hazırladığım verilişlərə dəvət edirdim ki, gəlib şairlərin şeirlərini səsləndirsin. İfaları verilişi daha da maraqlı və sanballı edirdi. Əvvəl Sumqayıt teatrında, sonra isə “Muzkomediya”da Nadirin oynadığı tamaşalara da çox baxmışam. Oğullarını isə son onillikdə tanımışam.

İstedadlar ailəsinin televiziya ekranlarında verilən və sosial şəbəkələrdə paylaşılan mahnı ifaçılığı ayrı bir aləmdir. Nadir Xasıyevin məşhur Aşıq Şakir üslubunda “Şirvan şikəstəsi”, eləcə də “Evləri sının obrazını ustalıqla yaradıb. “Şur” üstündə oxuduqları çox təsirli səslənir:

**Qürbün, bilirəm, mənə şərəfdir,**
**Əmma xələfin əcəb xələfdir.**
**“Məcnun” – deyə tən edir xəlayiq,**
**Məcnuna mənim qızım nə layiq?..**

Onu da deyim ki, Nadir Xasıyev və oğlu Səməd “Xarıbülbül” musiqi festivallarında dəfələrlə iştirak ediblər. Səməd “Xalq ulduzu–3”, Elay isə “Xalq ulduzu–4” layihəsi üzrə yarışların iştirakçısı olublar. İstedadları ilə bərabər, ədəb-ərkanları, böyük-kiçiyə hörmətləri ilə də tanınırlar.



var xana-xana”, “Bağçada güllər”, Səmədin “Şükriyyə”, “Gözəlim sənsən”, Elayın “Küçələrə su səpmişəm”, “Alagöz” və sair çoxsaylı mahnıları saf, duru səsləri ilə canı-könüldən oxumaları ilk notlarından adamı heyran edir. Xasıyevləri hər dəfə dinləyəndə istər-istəməz, yan-yörəmdəkilərə deyirəm: “Baxın, papaq altda necə oğullar var!”

Bu qeydləri yaza-yaza yenə də “Şirvan şikəstəsi”ni dinləyirəm. “Segah” üstündə sevənlərin haqq harayı, naləsi adamı havalandırır:

***Bülbül fəğan eylər gül həvəsindən,***
***Qoşa nar asılıb yar sinəsindən.***
***Elə gəl, elə get, bağ bərəsindən,***
***Bülbüllər hürküşüb, gül inciməsin...***

Nadir Xasıyevlə söhbətimdə ondan bu gözəl səslərin haradan qaynaqlandığını soruşdum. Dedi ki, müəllim ailəsində doğulub, ona qədər nəsillərində oxuyan olmayıb. Bircə molla babası rəhmətlik İzzətullanın avazla “Qurani-Kərim”dən ayələr oxuması, İlahi melodik səslənmələr onu qanadlandırıb. Ərəbcəni bilmədiyi üçün babasını sadəcə anlaşılmaz səslərlə təqlid edib, buna görə evdə danlanıb da. Bununla bərabər, bir qaynaq da Şirvan elindən olması, məclislərdə əsrlərdən üzü bəri süzülüb gələn el mahnılarını dinləyə-dinləyə səs sənətinə ömürlük “yoluxması”dır.

İnişil Akademik Musiqili Teatrında quruluşçu-rejissoru və libretto müəllifi Samir Qulamov olan “Leyli və Məcnun” tamaşasında Nadir Xasıyev Leylinin ata-

...Bir neçə il əvvəl yubileyimlə əlaqədar Sumqayıtdakı Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzindəki görüşə gedirdim. Binanın qarşısında harasa tələsən Elay Xasıyevlə rastlaşdım. Məsələni bilən kimi geri qayıtdı və aparıcının icazəsi ilə səhnəyə qalxaraq gözəl bir mahnı oxudu, axırda da məni xoş sözlərlə təbrik edəndən sonra səhnəni tərk etdi. Dostumun övladları, bax, belə əxlaq sahibləridir.

Yeri gəlmişkən, hələ məktəbli ikən Elay musiqi məktəbinin kamança sinfində oxuyub, sonra teatr sənətinə keçib. Səməd isə həm də musiqi istedadına görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqili teatr aktyoru fakültəsinə qəbul olub. Geniş vokal imkanı, eyni zamanda aktyorluğu ona səhnədə yaddaqalan obrazlar yaratmağa kömək edir. Hazırda Prezident təqaüdçüsüdür. Ondan əvvəl həmin təqaüdə layiq görülmüş səhnə ustası Nadir Xasıyev isə Mədəniyyət və İncəsənət Universitetini, bir müddət sonra Bakı Musiqi Akademiyasının vokal şöbəsini bitirib. Nəvəsi Əlibəy məharətlə tarzənlik edir, Nadir müəllimin ad günündə bir “Bayatı kürd” çaldı ki, baba üçün ən gözəl hədiyyə oldu. Banu isə istedadını fortepiano sahəsində sınayır.

Bəli, beləcə istedadlar ailəsi Azərbaycan mədəniyyətinə xidmət göstərir. Teatr və musiqi qanadlarında pərvaz edən Xasıyevlər özlərinə xas ustalıqla sənətlərində seçilir, necə deyərlər, xaslar xası sayılırlar.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Musiqi məktəblərinə qəbul başa çatıb

*2025/2026-cı tədris ili üzrə qəbul imtahanlarının nəticələri elan olunub*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyindən XQ-yə verilən məlumata görə, qurumun tabeliyində fəaliyyət göstərən musiqi məktəbləri və incəsənət mərkəzlərinə I -VIII siniflər üzrə şagird qəbul imtahanlarının ixtisas və məktəb seçimi mərhələsinin nəticələri açıqlanıb.**




5 gün ərzində namizədlər tələb olunan sənədləri həmin kabinet üzərindən sistemə yükləyərək qəbul prosesini təsdiqləməlidirlər. Bu mərhələ sənət yoluna qədəm qoyan yeni istedadlar üçün önəmli başlanğıcdır və hər yeni addım onları parlaq sənət dünyasına yaxınlaşdıracaq.

***Fidan ƏLİYEVA***
***XQ***

# Dövlət himayəsi altında doğmalıq

## *Himayədar ailələrin sayı 53-ə çatıb*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin himayədar ailələrə verdiyi uşaqların sayı 53-ə çatıb.**

Onlardan 32-si qız, 21-i oğlandır. Ailələrə qovuşanların 27 nəfəri 6 yaşadək, 21 nəfəri 7-13, 5 nəfəri 14-18 yaş arası uşaqlardır.

Himayədar ailələrin 29-u Bakı şəhərində, 24-ü rayonlarda yaşayır. Qanunvericiliyə uyğun olaraq nazirliklə himayəyə götürən şəxslər arasında uşağın ailəyə verilməsinə dair müqavilələr imzalanıb.

“Himayədar ailə” modeli uşaqlara qayğının dünyada geniş yayılmış nümunələrindən biridir. Valideyn himayəsindən məhrum olmuş uşaqların ailələrə verilməsi onların dövlət nəzarəti altında doğmalıq mühitində böyüməsinə və inkişafına xidmət edir.

Birləşmiş Millətlər Təşkilatının Uşaqların Hüquqları Konvensiyasına əsasən uşaqların ailə mühitində böyüməsi ən yaxşı inkişaf şəraiti sayılır. Bu səbəbdən bir çox ölkə himayədar ailə sistemini inkişaf etdirərək uşaqların ailə mühitində böyüməsini təmin etməyə çalışır.

ABŞ-da himayədar ailə sistemi geniş yayılıb. Hər il minlərlə uşaq zorakılıq və digər səbəblərlə ailə mühitindən ayrılır və himayədar ailələrə verilir. Kanadada da himayədar ailə sistemi inkişaf etmişdir.

Böyük Britaniyada isə himayədar ailə sisteminin inkişafı ilə bağlı müxtəlif təşəbbüslər mövcuddur. Hökumət himayədar ailələrə təlim və dəstək verərək uşaqların inkişafını dəstəkləyir.

Ümumilikdə isə 2050-ci ilə qədər dünyada 18 yaşadək valideyn himayəsindən məhrum uşaqların sayının təxminən 2,3 milyard nəfər olacağı proqnozlaşdırılır. Lakin gələcəkdə doğum, ölüm və beynəlxalq miqrasiya göstəricilərinə görə bu rəqəm 1,7 milyard ilə 3 milyard arasında dəyişə bilər.

“Himayədar ailə” modeli uşaqların ailə mühitində böyüməsini təmin edən və onların inkişafını dəstəkləyən sistemdir. Dün-




yanın müxtəlif ölkələrində bu sistem fərqli formalarda tətbiq olunur. Azərbaycan da bu sahədə inkişaf edir və gələcəkdə daha çox uşağın təhlükəsiz və sevgi dolu mühitdə böyüməsi üçün addımlar atılır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Biz nə üçün və nə vaxta qədər xəcalət çəkməliyik?

***İslandiya 400 min əhali arasında 23 peşəkar futbolçu hazırlaya bilirsə, Azərbaycanda 10 milyon insandan niyə 11 futbolçu hazırlamaq olmur?***

**Futbol üzrə Dünya Çempionatının seçmə mərhələsinin startı sentyabrın 4-də verildi. Fransa, Ukrayna və İslandiya yığma komandaları ilə D qrupunda yer alan Azərbaycan millisi isə ilk oyununa sentyabrın 5-də İslandiyaya qarşı Reykyavikdə meydana çıxmışdı. Matç Bakı vaxtı ilə gecə saat 23:30-da başladı.**

10 milyondan çox əhalisi olan Azərbaycanın milli futbol komandasının 400 min əhalisi olan İslandiya millisi ilə qarşılaşmasının ilk hissəsinə baxa bilmədim. Özlüyümdə düşündüm, yəni biz İslandiya qədər də deyilik ki, ona qalib gələ bilməyək? Portalda birinci hissənin 1-0 İslandiyanın xeyrinə başa çatdığını öyrənəndə bir az rahat nəfəs aldım ki, komandamız deyəsən mübariz və əzmkar oyun nümayiş etdirir, ikinci hissədə hər şey qaydasına düşəcək.

İkinci hissənin əvvəlindən kresloda yerimi rahatlayıb qarşılaşmanı diqqətlə izləməyə başladım. 3 dəqiqə keçməmiş Azərbaycan millisinin qapısından 2-ci topun keçdiyinə şahid oldum. Sadə və adi bir vəziyyətdə qarşısında sanki heç kim yoxmuş kimi cərimə



meydançamıza doğru şığıyan Qudmundsson uzaq dirəyin önünə ötürmə etdi. Torsteinsson qapını dəqiq nişan alsa da, Şahruddin əla reaksiya nümayiş etdirib topu qaytardı. Lakin bizim müdafiəçilər sanki hələ fasilədən qayıtmamışdılar və fürsəti əldən verməyən Yohannesson yaxın məsafədən topu qapıdan keçirdi.

Özümü yenə toplayıb, əsəblərimi cilovladım ki, futbolda belə hallar az olsa da, olur. Amma, necə deyərlər; "sən saydığını say", gör hakim İslandiyanın xeyrinə neçə dəfə mərkəzi göstərəcək, qollar sayacaq...

Oyunu izlədikcə, məndə belə təəssürat yaranırdı, sanki futbolçularımızı döyüb meydana çıxarmışdılar. Nə fiziki hazırlıqlarından, nə əzmkarlıqlarından, nə də Azərbaycan naminə mübarizədən əsər-əlamət belə görünmürdü.




Bütün ikinci hissə boyu meydançanın komandamıza aid hissəsində çox sərbəst oynayan islandiyalılar 57-ci dəqiqədə daha da irəli gedib cərimə meydançamızda azərbaycanlıları görmürmüşlər kimi, əla kombinasiya qurdular. Cərimə meydançasının sağ kənarında ötürmə alan Torsteinsson rahatca meydanın düz mərkəzinə keçdi və topu astaca Yohannessona diyirlədi. Qapı artıq tamamilə boş qalmışdı və islandiyalı özünün ikinci, komandasının 3-cü qolunu vurdu.

Oyun davam etdikcə mənə elə gəlirdi ki, islandiyalılar növbəti oyunlarının məşqinə çıxıblar və təkqapı oynayırdılar. Onların qarşısını kəsmək iqtidarında olan millimizin oyunçularından kimin adını çəkim, özüm də bilmirəm. Top ayaqlarına gələn kimi hara gəldi vururdular ki, təki onlardan uzaqlaşsın.

Bu mənada həqiqətən, meydanda Azərbaycan komandasında elə bir peşəkar futbolçu gözümə dəymirdi. Reykyavikin cəmisi 9 min 500 tamaşaçı tutan "Laugardalsvöllur" staionunda çevik, boylu-buxunlu, əla texnika nümayiş etdirən, böyük şövqlə oynayan İslandiya millisinə qarşı sanki Bakının süni örtüklü, saathesabı pulla icarəyə verilən meydanlarında top qovan "həvəskar" bir komanda var idi. Amma o həvəskar komandalar "Laugardalsvöllur" meydançasına çıxıb guya Azərbaycan futbolunun şərəfini qoruyan komandadan daha əzmkar oyun nümayiş etdirirlər. Hirsim soyusun deyə, bunları yazmıram. Millətin düşüncəsindən, 10 milyondan artıq Azərbaycan xalqının milyonlarla futbol həvəskarının kefinə soğan doğrayan, milliliyə əsla layiq olmayan komandasının rüsvayçı məğlubiyyətinin acısına batmış düşüncələrimi oxucularla bölüşürəm.

Oyun davam edir və 65-ci dəqiqədə hesab 3-0 isladiyalıların xeyrinədir. Topa sahibolmada da Arnal Qunnlauqssonun rəhbərlik etdiyi futbolçuların xeyrinədir. Yalvarırdım ki, qarşılaşma kaş elə bu hesabla başa çataydı, mən də ən azından bu oyuna şərh yazmaqdan imtina edəydim. Ya da heç olmaya portuqaliyalı Fernando Santosun yetirmələri heç olmaya 1 qol vuraydılar ki, biz də görəydik onlar da qol vura, Olssonun qoruduğu cərçivəyə dəqiq zərbə endirə bilirlər.

Amma çox təəssüf ki, tam əksinə oldu. Elə bu ümidlərimizin doğrulması üçün dua etdiyimiz bir məqamda - matçın 68-ci dəqiqəsində Haraldsson millimizin cərimə meydançasının mərkəzində çox çevik və gözəl fəndlərlə müdafiəçilərimizi "heçə çıxarıb" topu bir az sola, Qudmundssona ötürdü. İtaliyanın "Fiorentina" klubunda oynayan islandiyalı forvard sol tərəfdən qapıya yaxınlaşaraq, əla mövqedən uzaq küncə qövsvari güclü zərbə endirdi! Şahruddinın sıçrayışı heç nə vermədi. Qol... 4-0.

Azərbaycan komandası tamamilə çökmüşdü və yalvarırdım ki, yenə rüsvayçı hesab deyil, belə də qurtarsın. Əmin idim ki, belə düşünən təkcə mən deyildim, minlərlə azərbaycanlı azarkeş gecə yarısı yuxusuna haram qatıb televiziya ekranları qarşısında komandamızın bu aciz durumundan dəli olmaq dərəcəsinə çatırdı...

Yox, televizoru söndürüb, buna baxmamaq çıxış yolu deyildi. Azarkeşsənsə, mütləq internetdə də olsa hesabı öyrənəcəksən. İndi heç olmaya Azərbaycanın futbol şərəfinin kimlərin əlində olduğu və futbolumuzun bu bərbad vəziyyətinin nədən irəli gəldiyi barədə azarkeşlərlə də olsa müzakirələr aparıb bir qənaətə gələ bilərsən. Amma çifayda, bu futbolumuza nə verəcək ki?! Eldə bir məsəl var, deyir: "Çax-çax baş aparır, dəyirman öz işindədir".

Oyun davam edir. Komandamızın üzvləri sanki 100 ilin yorulub əldən düşmüş insanları kimi passiv oyunu ilə rəqibə meydanda istədiyini etməyə imkan verir. Dəqiqələr də getmir ki, bizi qəzəbləndirən bu acı mənzərədən canımız qurtarsın.

İslandiyalılar isə komandamızı darmadağın etməyə davam edirlər! Abbas Hüseynovun kobud oyunundan sonra meydan sahibləri hücumun sol cinahında standart vəziyyətdən zərbə vurmaq şansı qazanırlar. Bu dəfə Hlinsson Şahruddinin qoruduğu qapının uzaq küncünə qövsvari güclü ötürmə etdi və top bir-iki müdafiəçimizin ayaqları arasından sivişib heç kimə dəymədən birbaşa qapıya girdi. Məhəmmədəliyev hadisələrin bu cür dönüşünə reaksiya verə bilmədi. Bu da 5-ci qol və portuqaliyalı Fernando Santosun çalışdırdığı Azərbaycan millisinin rüsvayçı məğlubiyyəti. Oyunu sona qədər izləməli oldum dedim bəlkə komanda fövqəladə bir əzmkarlıq nümayiş etdirib heç olmaya bir qol vura. Olmadı.

Final fiti səslənəndən sonra oturub öz-özümə fikirləşdim ki, görəsən 10 milyondan çox əhalisi olan Azərbaycan 400 min əhalisi olan İslandiya futbol millisinə qarşı mübarizəni niyə uduzur? Axı nə üçün İslandiya 400 mindən bir az artıq əhalisi arasında Olsson, Torsteinsson, Yohannessona, Hlinsson və sair sonlar kimi yüksək səviyyəli peşəkar futbolçular yetişdirə bilir, amma Azərbaycan 10 milyondan çox əhalisinin içindən heç olmaya 11 peşəkar futbolçu hazırlaya bilmir? Məsələ pulda olsa, bildiyim qədər Azərbaycan İslandiyadan zəngin ölkədir. Bəs məsələ nədədir? Nə vaxtsa kimsə bu sualın cavabını verə biləcəkmi? Təbii, AFFA həmişə olduğu kimi buna cavab tapacaq. Amma bu cavaba heç kimsə inanmayacaq və inanmamaqda da haqlıdırlar.

Bəlkə özümüz düşünüb, araşdırıb bu sualın cavabını qismən də olsa tapmağa çalışaq. Axı Azərbaycanda futbolun tarixi dünən, srağagün başlamır. Nə deyirsiz, hörmətli peşəkar futbolçular və mütəxəssislər? Buna dəyərmi?

***İlqar RÜSTƏMOV***
***XQ***

# Qaqa, sən düz deyirsən, amma elə deyil...

*Futbolumuzun "Qarabağ" fəxri, yaxud Tahir Gözəlin bildirdiklərinə sözardı*

**Ağdamda belə bir məşhur, az qala, zərb-məsələ çevrilmiş fikir var: Qaqa, sən düz deyirsən, amma elə deyil. Görünür, bu el deyimini bölgənin "Qarabağ" Futbol Klubunun Prezidenti cənab Tahir Gözəlin dediklərinin müqabiliində yada salmağımızda hansısa qanunauyğunluq var. Yazımız isə cənab Gözəlin dediklərinə münasibət səciyyəsi daşısa da, vurğuladığımız məqamların "Qarabağ"ımıza dəstək baxımından əhəmiyyət daşıyacağına inanırıq. Çünki məqsədimiz mütərəqqidir.**



Amma əvvəlcə Tahir Gözələ təşəkkür payımızı çatdıraq. Bu gün "Qarabağ" Çempionlar Liqası kimi nüfuzlu turnirin əsas mərhələsindədirsə, deməli, klubun rəhbəri kimi Tahir bəyin əməyi vurğulanmalıdır. Üstəlik, nəzərə alsaq ki, 10 milyonluq Azərbaycanın futbol üzrə milli komandası cəmi 400 min əhaliyə sahib və futbol ölkəsi kimi tanınmayan İslandiyanın seçməsinə 5 cavabsız qolla məğlub olur, cənab Gözələ nəinki təşəkkür, eyni zamanda, dərin minnətdarlıq düşür. Hər halda, Azərbaycan futbolu adına bir komandanı ayaqda tutmaq adi məsələ deyil. Bu, son dərəcə böyük zəhmət tələb edir.

Bəli, Tahir Gözəl düz deyir ki, futbol klubunu idarə etmək çətindir. Çətinlik həm də ondadır ki, hazırda "Qarabağ"a çox böyük diqqət var. Dünyanı hələlik bir kənara qoyur, sırf Azərbaycan ictimaiyyətinin diqqətini nəzərdə tuturuq. Heç şübhəsiz, cənab Gözəli bir neçə gün əvvəl dilə gətirdiklərini açıqlamağa, yaxşı mənada, məcbur edən məhz həmin diqqət idi. Tahir bəy həm də ona görə sağ olsun ki, ictimai rəyi nəzərə alaraq mikrafonlar önünə çıxdı. Həqiqətən, ibrətamiz addımdır.

İctimai rəydə isə "Qarabağ"ın hücumçu transferi məsələsi son dərəcə geniş müzakirə olundu. Müxtəlif adlar çəkildi. Amma niyəsə müzakirə klub Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazandıqdan sonra gücləndi. Təbii, "Qarabağ"ın hücumçuları var. Məsələn, Nəriman Axundzadə, Musa Qurbanlı. Yeri gəlmişkən, bu iki futbolçunun çıxışları təqdirəlayiqdir. Xüsusən, Nərimanın ötən illə müqayisədə təcrübəsini xeyli artırdığının şahidiyik. Amma...

"Əmması" budur ki, "Qarabağ"a qol vuran ayaq lazımdır. Bu zərurəti azarkeşlər də hiss edib, görünür, klubun rəhbərliyi də. Elə baş məşqçi, çox hörmətli Qurban Qurbanovun özü də həmçinin. İndi T.Gözəl müxtəlif arqumentlər gətirib oyunçu transferinin mürəkkəbliyinə dair fikirlər səsləndirə bilər. Amma onun bildirdikləri daha çox, belə demək mümkünsə, daxili mətbəxin xüsusiyyətləridir. Məsələn, insanlarımız ayrı-ayrı klubların tutaq ki, 500 min dəyərə malik futbolçu üçün 8 milyon məbləğ şişirtdiklərinin fərqinə varmırlar. Azarkeşlər, eyni zamanda, düşünmürlər ki, klubun dəyərindən yüksək futbolçunu transfer qərarı komandanın digər oyunçularında diskomfort formalaşdırar, Tahir bəyin təbirincə desək, köhnələr yeniyə ötürmə etmək istəməzlər. Axı, hamı hamının qiymətindən agahdır. İndi açıqca soruşa bilərik ki, "daxili mətbəxin" hansısa azarkeşə dəxli varmı? Amma soruşmuruq, çünki vurğulanmalı başqa mətləblər var.

Azarkeş, yəni bütövlükdə Azərbaycan cəmiyyəti "Qarabağ"dan fövqəladə nə isə gözləyir. Klubun mərkəz hücumçusuna ehtiyac duymasının geniş müzakirəsi də bu gözləntidən qaynaqlanır. İnsafən, "Qarabağ" onun alınması üçün çox çalışdı, hətta mediaya müxtəlif klublarla danışıqların aparıldığına dair məlumatlar sızdı. Amma yenə Tahir bəyin təbirincə desək, alınmadı. Niyə alınmadı, çünki "Qarabağ" hücumçu axtarışı üçün hərəkətə transfer pəncərəsinin bağlanmasına çox az qalmış keçdi və onun elçi düşdüyü futbolçuların oynadıqları klublar, loru dildə desək, ayaqlarını qaldırıb nərdivanın yuxarı pilləsinə qoydular, dəyəri yüksək olmayan futbolçunu satıb çox qazanc əldə etmək istədilər. Anlaşılandır, həm də ona görə göydən getdilər ki, "Qarabağ"ın heyətinə qatmağı arzuladığı futbolçu özlərinə lazım idi. Baxın, Tahir bəy də vurğulayır ki, rəhbərlik etdiyi kluba 10 milyon versələr də, öz futbolçusunu satmaz. Digər tərəfdən, xaricilərin göydəngetmələrində "Qarabağ"ın Çempionlar Liqasının əsas mərhələsində mübarizə aparması amili də vurğulanmalıdır.




Deməli, futbolçu axtarışını transfer pəncərəsinin bağlanmasına günlər qalmış aparmaq yanlışdır. O zaman, başqa sual yaranır: "Qarabağ" nə üçün indiyədək məsələn, klubu ötən il tərk edərək vətəni Braziliyaya yollanmış Juninyo kimi forvard tapmayıb? Axı həmin Juninyonu futbol aləminə tanıdan Ağdam klubu olmuşdu. Yəni, bunu etmək mümkündür. İndi isə həmin "Qarabağ" istəyib ki, Juninyonu yenidən heyətinə qatsın, amma braziliyalının top qovduğu komanda, necə deyərlər, göylə gedib. Anlaşılandır, çünki futbol həm də biznesdir.

Əlqərəz, juninyoların axtarışına tez çıxmaq lazım idi. Amma indi belə təsəvvür var ki, klub rəhbərliyi əvvəl vəziyyətə baxıb gözləmək qərarı verib. Tahir bəy bunu komandanın strateji idarəçiliyi kimi qiymətləndirə bilər. Necə qiymətləndirməsin, axı Azərbaycan çempionu olmaq üçün "Qarabağ"a, böyük ölçüdə, düz-əməlli hücumçu lazım da deyil. Heç millimizi rüsvay edən İslandiyanın çempionunu məğlubiyyətə uğratmaq üçün də forvarda ehtiyac yoxdur.

Amma yüksək hədəflər uğrunda mübarizə aparan komandada strategiya deyilən bir şey var və həmin strategiya az maliyyə ilə də böyük nəticələr qazanmağa imkan verir. Hər halda, Ağdam klubu zamanında Juninyonu sıralarına qatmaqdan ötrü çox pul xərcləməmişdi. Amma Almaniya "Bayer"inə köks ötdürən futbolçu məşhurlaşdı və "Qarabağ" onu "Flamenqo"ya yüksək məbləğə satdı.

Deməli, başlıca vəzifə satdığı futbolçunun yerini doldurmaq olmalı idi. Məsələ isə ondadır ki, "Qarabağ" bu zərurəti Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazandıqdan sonra qarşılamaq qərarına gəldi və onda da çox gec idi.

Bəli, klubun malik olduğu strategiya, hansı maliyyə imkanlarından asılı olmayaraq, onun oyunçu ehtiyaclarını qarşılamalıdır. Məgər "Qarabağ" birdən-birəmi yüksəldi? Xeyr, komanda ilbəil gücləndi və nəticələr verdi. Tutaq ki, montoneqrolu Yankoviç kimi yüksək səviyyəli futbolçu anidən gəlib klubun heyətinə düşmədi. Hər halda, "Qarabağ" iş apardı, üstəlik maliyyə imkanları artdı, onu



əldə edə bildi və bu iş həm də komandanın məyyənləşdirdiyi düzgün strategiyanın məhsuluna çevrildi.

Yəni, hörmətli Tahir bəy, bilirik ki, çalışırsınız, amma daha çox çalışmağa ehtiyac var. Onsuz da komanda Qurban Qurbanov kimi sehrbaza malikdir. O sehrbaz ki, Avropanın istənilən klubunda özünü təsdiqləyə bilər. Deməli, qalır Qurbanovun sehrinə şərait yaratmaq. Burada "Qurban hocaya hər şeyi vermişik, hər imkanı yaratmışıq" şəklində fikirlər də yetərli deyil. Axı onun sehrbazlığı meydança ilə məhdudlaşır.

"Qarabağ"ın müasir dillə desək, skautları daha ciddi işləməlidirlər. Həmin skautlar əvvəlcədən hansısa futbolçunun izinə düşməli, komandaya uyğunluğunu dəqiqləşdirməli və bu barədə məşqçi heyətini məlumatlandırmalıdırlar. Mövcud istiqamətdəki bir çox başqa incəlikləri də açıqlamaq mümkündür, amma lüzum görmürük. Həm də ona görə lüzum görmürük ki, istər Tahir bəyin, istərsə də "Qarabağ"ın rəhbərliyində təmsil olunan digər şəxslərin diqqətə çatdırdığımız mətləbləri gözəl dərk etdiklərindən xəbərdarıq. Biz, yəni, bütövlükdə, Azərbaycan ictimaiyyəti nəticəyə baxırıq. Nəticə isə budur ki, transfer pəncərəsi bağlandı və "Qarabağ" özü üçün lazım olan mərkəz hücumçusu ala, yaxud tapa bilmədi. Etiraf edək ki, bundan sonra hörmətli Tahir bəyin nəyə, hansı formada izah gətirməsinin heç bir önəmi qalmır.

Ancaq yazımızı nikbin notlarla tamamlayaq. Çünki futbolu olmayan, millisi bərbad ölkənin lider komandası "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsində mübarizə aparacaq. Başda Tahir bəy olmaqla, bütün komanda heyətinə turnirdə uğurlar arzulayır və qeydlərimizin səmimi qarşılanacağına, "Qarabağ"ımız naminə ümumi işə töhfə verəcəyinə inanırıq.

***R.AMİN***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 190 (30884) 7 sentyabr 2025-ci il, bazar

## İDMAN

### 3-cü boksçumuz da Dünya çempionatına qələbə ilə başlayıb



**İngiltərənin Liverpul şəhərində keçirilən kişi və qadın boksçular arasında dünya çempionatı davam edir.**

Azərbaycan Boks Federasiyasından bildirilib ki, mundialın ikinci günündə millimizin daha bir üzvü mərhələ adlayıb. Sübhan Mamedov (50 kiloqram) 1/16 finalda Fredelin De Los Santosla (Dominikan Respublikası) üz-üzə gəlib. Boksçumuz rəqibini 4:1 (29:28, 29:28, 29:28, 29:28, 28:29) hesabı ilə məğlub edib. O, 1/8 finalda Samet Gümüşlə (Türkiyə) qarşılaşacaq. Döyüş sentyabrın 9-da olacaq.

Qeyd edək ki, daha öncə Zaur Qəhrəmanovla (65 kiloqram) Səidcəmşid Cəfərov (75 kiloqram) da mərhələ adlayıb.

### U-19-un 2-ci qələbəsi



**Sloveniyada təlim-məşq toplanışında olan 19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası bu gün “Slovenia Nations Cup” yoldaşlıq turnirində ikinci oyununu keçirib. Dünən ölkəmizin U-19 təmsilçiləri Farer adalarının müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Görüş Elxan Abdullayevin yetirmələrinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.**

Komandamızın heyətində qolları 25-ci dəqiqədə Rauf Qafarov və 57-ci dəqiqədə Eltun Babazadə (penalti) vurublar.

Qeyd edək ki, beynəlxalq turnir çərçivəsində ilk oyununda İslandiya yığmasını 2:1 hesabı ilə məğlub edən U-19 növbəti matçını sentyabrın 9-da Polşa seçməsinə qarşı keçirəcək.

### Avropa çempionatında 2 qızıl, 1 bürünc



**Slovakiyanın paytaxtı Bratislavada keçirilən cüdo üzrə gənclər arasında Avropa çempionatında fərdi mübarizələr başa çatıb.**

Dünən – üçüncü yarış günündə Azərbaycanın 4 cüdoçusu tatamiyə çıxıb.

Davud Namazlı (100 kq), Ramazan Əhmədov (+100 kq) və Nigar Süleymanova (+78 kq) ilk görüşdə məğlub olaraq qitə birinciliyi ilə erkən vidalaşıblar.

90 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan Aslan Kotsoyev birinci görüşündə Macarıstan idmançısı Leventr Kissə ipponla qalib gələrək 1/8 finala vəsiqə qazanıb. Lakin idmançımız bu mərhələdə gürcüstanlı dünya çempionu Luka Cavaxişviliyə məğlub olaraq mübarizəni dayandırıb.

Beləliklə, cüdoçularımız Avropa çempionatını fərdi yarışlarda 2 qızıl, 1 bürünc medalla başa vurub.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Çin alimləri Azərbaycanda



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Çin Sosial Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutunun nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə akademik İsa Həbibbəyli son illərdə Azərbaycanla Çin arasında siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə əlaqələrin gücləndiyini və yeni müstəviyə yüksəldiyini söyləyib. Natiq qeyd edib ki, bu gün iki dövlət arasında münasibətlər etibarlı tərəfdaşlığa, yüksək etimada söykənir və ölkələrimiz arasında viza rejiminin ləğvi bunun bariz nümunəsidir. Bu günlərdə Prezident İlham Əliyevin Çinə səfərinin strateji əməkdaşlıq baxımından böyük əhəmiyyət kəsb etdiyini deyən AMEA rəhbəri dövlətimizin başçısının Çin Xalq Respublikasının Sədri Si Cinpinlə keçirdiyi yüksək səviyyəli görüş, “ŞƏT plyus” formatında görüşdə iştirakı və geniş nitqinin Azərbaycan–Çin münasibətlərinin hərtərəfli inkişafına yeni nəfəs verəcəyini vurğulayıb.

Dövlət başçılarımızın açdığı geniş yolda Azərbaycanla Çin arasında elmi əlaqələrin də inkişaf etdiyini diqqətə çatdırıb. Akademik AMEA-nın dost ölkənin müvafiq qurumları ilə sıx əməkdaşlıq etdiyini, rəhbərlik etdiyi qurumda Çinə dair aparılan tədqiqatları diqqətə çatdırıb.

Çin Sosial Elmlər Akademiyasının Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutunun direktor müavini-professor Çzin Çje çıxışında səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkələrimiz arasında yüksək əlaqələrin genişlənməsinin elm xadimləri üçün də geniş imkanlar açdığını vurğulayıb. AMEA-da Çinə dair aparılan tədqiqatlardan məmnunluğunu dilə gətirən professor Çzin Çje birgə əməkdaşlığın genişləndirilməsi barədə təkliflərini səsləndirib.

Görüşdə AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da iştirak ediblər.

Çinli alimlər sonda Rəyasət Heyətinin tarixi binası ilə tanış olublar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*8 Sentyabr Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günüdür*

# Vicdanlı sözün azad dünyası




**Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü sadəcə tarix deyil, həm də qələmə sədaqətin, peşəyə vicdanla xidmətin, sözlə gerçəyi axtaranların həmrəyliyinin rəmzidir. Jurnalistika xəbər yaymaq, həm də həyatın özü, müharibənin od-alovundan, pandemiyanın təlatümündən, sosial ədalətsizlikdən, insanların gündəlik qayğılarından – hər şeydən xəbərdar olmaq, onu dəyərləndirmək və xalqa çatdırmaq missiyasıdır. Bu missiyanı yerinə yetirən jurnalistlər bəzən görünməz qəhrəmanlardır.**

Dünya mediası üçün əlamətdar sayılan bu tarix hitlerçilərin 1943-cü il sentyabrın 8-də qətlə yetirdikləri çexiyalı jurnalist Yulius Fuçikin xatirəsinə təsis edilib. 1958-ci ildə Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Beynəlxalq Jurnalistlər Təşkilatının IV Konqresində bununla bağlı qərar qəbul olunaraq hər il sentyabrın 8-i Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü kimi qeyd edilir. BMT tərəfindən təsis edilmiş bu bayram günündə bütün jurnalistlər həmrəylik və birlik nümayiş etdirirlər.

Azərbaycanda jurnalistikanın qədim və zəngin ənənələri var. “Əkinçi” qəzetindən bu günədək jurnalist sözü daim maarifin, inkişafın, dövlətçilik düşüncəsinin daşıyıcısı olub. Müasir dövrdə də Azərbaycan jurnalistləri informasiya təhlükəsizliyinin qorunmasında, ictimai düşüncənin sağlam formalaşmasında, dövlət maraqlarının müdafiəsində mühüm rol oynayırlar. Qlobal çağırışların fonunda, sosial medianın təsirinin artdığı bir zamanda peşəkar və obyektiv jurnalistikaya ehtiyac daha da aktuallaşır.

Bu gün ölkəmizdə fəaliyyət göstərən KİV-in beynəlxalq əlaqələri getdikcə genişlənir. Son illər ərzində respublikamızın internet seqmentində onlarla yeni xəbər portalı yaranıb, yüzlərlə sosial media resursu açılıb ki, bu da Azərbaycanda informasiyanın əlçatanlılığının təmin olunmasına xidmət edir. Eyni zamanda milli mətbuatımız dünya media məkanına sürətlə inteqrasiya olunur. Prezident İlham Əliyevin həm xarici, həm də yerli jurnalistlərlə tez-tez görüşlər keçirməsi, cəmiyyəti maraqlandıran sualları cavablandırması onun mediaya necə böyük önəm verdiyinin göstəricisidir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Enerjinin yeni ünvanı – hidrogen

**Çin Elmlər Akademiyasının alimləri Yeni Qvineyanın şimal-şərq sahillərində irihəcmli sualtı hidrogen yatağının mövcudluğunu aşkarlayıblar. Bu kəşf həm elmi, həm də iqtisadi baxımdan xüsusi əhəmiyyət daşıyır və gələcəkdə enerji təhlükəsizliyi mövzusunda yeni imkanlar aça bilər.**

Hidrogen uzun illərdir “gələcəyin yanacağı” kimi təqdim olunur. Onun əsas üstünlüyü atmosferə zərərli karbon qazı buraxmamasıdır. Karbon neytrallığına nail olmağı hədəfləyən dövlətlər üçün hidrogenin əhəmiyyəti getdikcə artır. Lakin indiyədək bu yanacaq əsasən süni yollarla, yüksək maya dəyəri tələb edən texnologiyalar vasitəsilə istehsal edilirdi. Təbii hidrogen yataqlarının aşkarlanması isə bu sahədə inqilabi dönüş yarada və alternativ enerji bazarında böyük dəyişikliklərə səbəb ola bilər.

Yeni yataq Musssau xəndəyinin qərbində yerləşən “Kunlun” hidrotermal kompleksi ərazisində aşkar edilib. Kompleksin tərkibinə 20 boru formalı oyuq daxildir və onların dördündə yüksək hidrogen konsentrasiyası qeydə alınıb. Batiskaf vasitəsilə aparılan tədqiqatlar bölgədə nadir geokimyəvi şəraitin mövcudluğunu da göstərib. Alimlərin fikrincə, bu cür formasiya nümunələri Yerin digər okean mantiyalarında da mövcud ola bilər. Əgər bu hipoteza təsdiqlənərsə, dünya okeanları hidrogenin nəhəng təbii anbarı kimi nəzərdən keçirilə bilər.



Hidrogen yataqlarının sənaye üsulu ilə hasilatının qlobal enerji bazarında ciddi dəyişikliklərə gətirib çıxaracağı ehtimal edilir. Hazırda enerji resurslarında liderlik edən neft və qaz istehsalçıları rəqabətdə yeni çağırışlarla üzləşəcəklər. Bu kəşf xüsusilə Asiya ölkələri üçün həm enerji idxalından asılılığı azaltmaq, həm də alternativ texnologiyaların inkişafını sürətləndirmək baxımından strateji əhəmiyyət kəsb edir. Avropa İttifaqı və ABŞ da hidrogen iqtisadiyyatına milyardlarla dollar sərmayə yatırır. Çin alimlərinin kəşfi bu prosesləri daha da gücləndirə və yeni texnoloji əməkdaşlıqlara zəmin yarada bilər.

Bununla yanaşı, mütəxəssislər bir sıra risklərə də diqqət çəkirlər. Sualtı hasilatın ekosistemlərə təsiri, dərin dəniz geoloji proseslərinin pozulması ehtimalı və texniki çətinliklər əsas narahatlıqlar sırasında göstərilir. Yüksək dərinliklərdə hasilat həm mürəkkəb texnologiyalar, həm də böyük maliyyə resursları tələb edir.

Yeni Qvineya sahillərində aşkar edilən hidrogen yatağı həm elmi, həm də siyasi baxımdan tarixi əhəmiyyət daşıyır. Bu kəşf bəşəriyyətin enerji gələcəyi üçün yeni imkanlar açmaqla yanaşı, böyük dövlətlər arasında rəqabəti də kəskinləşdirə bilər. Əgər texnoloji və ekoloji problemlər həllini tapsa, hidrogenin XXI əsrin əsas enerji mənbələrindən birinə çevriləcəyi qaçılmaz olacaq.

*XQ*

# Bakıda yağmursuz, bəzi rayonlarda yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin sentyabrın 6-dan 7-nə keçən gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimal olunur. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24° isti, gündüz 27-30° isti olacaq.**



Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət gecə 75-80 faiz, gündüz 45-50 faiz olacaq.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 25-26°, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.

Azərbaycanın rayonlarında da hava şəraitinin, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24° isti, gündüz 30-35°, dağlarda gecə 13-18°, gündüz 20-25° isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3463
SİFARİŞ 1739
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00